# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Suverenliyin bərpası: siyasi müstəvidə yeni münasibətlər sisteminin formalaşdırılması"**



6

№ 035 (7203)

SƏS

26 fevral 2025-ci il.
Qiyməti 60 qəpik

## Azərbaycan-Pakistan: etibar və tərəfdaşlıq nümunəsi



2

**Prezident İlham Əliyev: "Biz ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsində bir-birimizə qarşılıqlı surətdə dəstək veririk"**

# Xocalı soyqırımı - erməni faşizminin gerçək üzü!

*Xocalı faciəsindən 33 il ötür*




4

**Tramp Ukraynanı özəlləşdirir və...**



8

**Edisona "ağıldankəm", Bethovenə "qabiliyyətsiz", Eynşteynə "axmaq" deyən təhsil sistemi**



9

**XOCALI: qisası döyüş meydanında alınan yurd yerimiz!**




11

**Qarlı havada baş verən yol qəzalarında dəymiş zərəri kim ödəməlidir?**



16

**Sosial şəbəkələrin üzünü ağardan QAR**



13

# Azərbaycan-Pakistan: etibar və tərəfdaşlıq nümunəsi

## Prezident İlham Əliyev: "Biz ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsində bir-birimizə qarşılıqlı surətdə dəstək veririk"



"Pakistan bizim üçün ən yaxın dost və qardaşlardan biridir. Xalqlar arasında əlaqələr də uğurla inkişaf edir". Bu fikirləri Prezident İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə mətbuata bəyanatında söyləyib. Pakistan və Azərbaycan arasındakı yaxın və səmimi əlaqələr mədəni irs, qlobal və regional məsələlərlə bağlı sərgilədikləri birgə münasibət və beynəlxalq forumlarda əməkdaşlıqla xarakterizə olunur. Hər iki ölkə bir-birinə sıx dostluq əlaqələri ilə bağlıdır. Pakistan Sovet İttifaqının süqutundan sonra müstəqillik əldə edən Azərbaycanı 1991-ci ilin oktyabrında tanıyan ilk üç dövlətdən birincisidir. Diplomatik əlaqələrin əsası 1992-ci ilin iyununda qoyulmuşdur. Bakıda Pakistan səfirliyi 1993-cü ilin martında açılmışdır. Azərbaycan İslamabadda öz diplomatik missiyasına 1997-ci ilin avqustunda başlamışdır. Əməkdaşlıq siyasi, iqtisadi, təhlükəsizlik, mədəniyyət, müdafiə və digər sahələrdə davam etdirilir.

### "BEYNƏLXALQ TƏSİSATLARDA FƏAL ƏMƏKDAŞLIQ EDİRİK VƏ İŞTİRAK ETDİYİMİZ BÜTÜN BEYNƏLXALQ TƏŞKİLATLARDA DAİM BİR-BİRİMİZİ DƏSTƏKLƏYİRİK"

Qardaş ölkə Qarabağ münaqişəsi ilə bağlı öz qəti mövqeyini də bildirib. Azərbaycana dəstək vermək və həmrəylik nümayiş etdirməklə Ermənistanla diplomatik əlaqələr qurmayıb, onu bir dövlət kimi tanımayıb. Həmçinin Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Azərbaycana dəstəyini möhkəmləndirmək üçün Xocalı faciəsini genosid kimi tanımışdır.

Azərbaycan da bütün məsələlərdə Pakistanın mövqeyini dəstəkləyir. Hər iki dövlət bir çox beynəlxalq forumlarda eyni maraqlardan çıxış edərək öz fəaliyyətlərini koordinasiya edir, bir-birini müəyyən məsələlərdə qeyd-şərtsiz dəstəkləyir, beynəlxalq təşkilatlarda namizədlər məsələsində qarşılıqlı razılığa gəlirlər. Dövlət başçısı bildirib ki, iki qardaş ölkə olaraq biz beynəlxalq münasibətlərin bütün məsələlərində bir-birimizə dəstəyi davam etdirəcəyik: "Biz ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsində bir-birimizə qarşılıqlı surətdə dəstək veririk, beynəlxalq təsisatlarda fəal əməkdaşlıq edirik və iştirak etdiyimiz bütün beynəlxalq təşkilatlarda daim bir-birimizi dəstəkləyirik".

### "AZƏRBAYCAN PAKİSTANDAN MÜDAFİƏ SƏNAYESİNİN İSTEHSAL ETDİYİ AVADANLIĞI ARTIQ ALIB"

İki qardaş dövlət müdafiə, enerji, infrastruktur layihələrinin icrası, informasiya texnologiyaları, səhiyyə və əczaçılıq, tekstil və farmakoloji preparatlar, xüsusilə bütün mümkün domenlərdə birgə müəssisələrin qurulması və digər sahələrdə əməkdaşlıq edirlər. "Bu gün müzakirə etdiyimiz məsələlər arasında əsas hissə müdafiə, eləcə də müdafiə sənayesi sahələrində əməkdaşlığa həsr olunmuşdur. Azərbaycan Pakistandan müdafiə sənayesinin istehsal etdiyi avadanlığı artıq alıb və biz onun keyfiyyətindən çox razıyıq və birmənalı olaraq, bu işi davam etdirəcəyik", - deyə Prezident İlham bildirib: "Eyni zamanda, biz müdafiə sənayesi məhsullarının birgə istehsalı imkanlarını müzakirə etdik və bu, əməkdaşlığımızın digər mühüm sektoru olacaq".



Azərbaycanın qardaş ölkə ilə əməkdaşlığında hərbi siyasi amil də hər zaman mühüm rol oynayıb. Bu cəhətdən, Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2002-ci ildə imzalanan müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında sazişdə hər iki ölkənin hərbi-siyasi sahədə tərəfdaşlığının prioritet istiqamətləri əks olunub. Bu müqavilə ilə dövlətlərimiz arasında hərbi əlaqələr daha da genişlənib. "Bilirik ki, Pakistanın çox inkişaf etmiş müdafiə sənayesi var. Azərbaycan da öz potensialını inkişaf etdirir. Biz müdafiə sənayesinin məhsullarını artıq 30-dan çox ölkəyə ixrac edirik. Düşünürəm ki, birgə istehsal ilə təchizatımız - ixracyönümlü təchizatımız daha da artacaq", - deyə Prezident vurğulayıb.

### "AZƏRBAYCANIN PAKİSTAN İQTİSADİYYATINA İKİ MİLYARD ABŞ DOLLARI SƏRMAYƏ YATIRMAQ PLANLARI VAR"

Səfər çərçivəsində həmçinin beynəlxalq gündəlikdə duran çoxsaylı məsələlər müzakirə olunub. "Beynəlxalq münasibətlərin cari gedişatı ilə bağlı mövqeyimiz və baxışlarımız tam üst-üstə düşür. Müzakirələrimizin nəzərəçarpan hissəsini ticari və iqtisadi sektorlara həsr etdik və birlikdə məyusluğumuzu ifadə etdik ki, ticarət dövriyyəmiz cəmi bir neçə on milyonla ölçülür. Bir sözlə, biz ticarət dövriyyəmizi artırmalıyıq və düşünürəm ki, bunu necə etməyi bilirik", - deyə dövlət başçımız diqqətə çəkib:"Xüsusən də nəzərə alaq ki, ötən yay Pakistana dövlət səfərim zamanı bəyan etdiyim kimi, Azərbaycanın Pakistan iqtisadiyyatına iki milyard ABŞ dolları sərmayə yatırmaq planları var. Biz bir neçə ay əvvəl Pakistan tərəfindən konkret layihələri aldıq və Azərbaycan nümayəndələri onları hazırda qiymətləndirir.

Bir sözlə, bu gün düşünürəm ki, qardaşımla birgə çox mühüm, eyni zamanda, çox realist hədəfləri müəyyən etdik: bir ay ərzində bütün müzakirələr yekunlaşsın və aprelin əvvəlində sənədlər imza üçün hazırlansın. Həmin layihələr həm infrastrukturun inkişaf sahələrini, həm energetika, mədən işi və ola bilsin, digər sahələri əhatə edir." "İnşallah, aprel ayında, hər şey müzakirə edildikdən və qərar qəbul olunduqdan sonra mən 2 milyard dollar dəyərində razılıqları tamamlamaq üçün yenə də Sizi İslamabadda qəbul etməkdən böyük şərəf və sevinc hissi keçirəcəyəm". Bu sözləri Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Prezident İlham Əliyevlə mətbuata bəyanatında səsləndirib: "Bu, bizim ticarət və investisiya münasibətlərimizdə ilk keyfiyyətli sıçrayış olacaq və qardaşlıq əlaqələrimizi əhəmiyyətli dərəcədə əks etdirəcək", - deyən Baş nazir bildirib ki, bizim dostluğumuz, siyasi anlaşmamız, beynəlxalq səviyyədə, beynəlxalq forumlarda düşüncə və hərəkət vəhdətimiz əfsanəvi olmuşdur: "Lakin hesab edirəm ki, iş birliyimiz, ticarətimiz, investisiya münasibətlərimiz bizim əlaqələrin həqiqi gücünü əks etdirmirdi. Hesab edirəm ki, bu gün biz bu hədəfə çatdıq və İnşallah, bir aydan sonra biz həmin böyük qərarın həyata keçirilməsini qeyd edəcəyik".

### "İMZALANMIŞ SAZİŞLƏRİN ÜMUMİ SAYI 10-DAN ARTIQDIR"

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında imzalanmış - Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə "Frontier Works Organisation" (FWO) və "Pakistan State Oil Company Limited" şirkəti arasında Anlaşma Memorandumunu, "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri və Pakistan İslam Respublikasının Pəncab Əyalətinin Lahor şəhəri arasında mədəniyyət, turizm, şəhərsalma, təhsil, elm, iqtisadiyyat və ictimai həyatın digər müvafiq sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli Ərzaq Təhlükəsizliyi və Tədqiqatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Pakistan İslam Respublikasının İqlim Dəyişmələri və Ətraf Mühitin Koordinasiyası Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Niyyət Protokolu", "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə Pakistanın Milli Müdafiə Universiteti arasında elmi-tədqiqat və əməkdaşlıq fəaliyyətləri sahəsində Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə Pakistan İslam Respublikasının Milli Peşə və Texniki Təlim Komissiyası (NAVTTC) arasında peşə təhsili sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" və s. sənədlər gələcək əməkdaşlığa yeni imkanlar açaçaq. Prezident İlham Əliyevin bildirdiyi kimi, "Bu gün imzalanmış razılaşmalar yalnız indicə gördüyümüz mərasimlə məhdudlaşmır. Bir çox sazişlər digər auditoriyalarda artıq imzalanmışdır. Beləliklə, cənab Baş nazirin səfəri zamanı imzalanmış sazişlərin ümumi sayı 10-dan artıqdır. Bir sözlə, onlar gələcək əməkdaşlığa üçün yaxşı bünövrə yaradacaq. Sərmayə planlarımız əsasında, əminəm ki, biz ticari dövriyyəmizin artımını da görəcəyik".

Mövcud əlaqələr hər iki dövlətin milli maraqlarına cavab verir. Strateji dialoq dövlətlərin dünya və regional arenalara, o cümlədən Avrasiya geosiyasi məkanına təsirini gücləndirməyə xidmət edir.

Beləliklə, Azərbaycan ilə Pakistanın hər zaman birgə addımlaması, iki dost dövlət arasında strateji əməkdaşlığın daha da möhkəmlənməsi ölkələrimizin inkişafına, xalqlarımızın rifahına böyük töhfələr verəcək, eləcə də regionda və dünyada sülhün və təhlükəsizliyin gücləndirilməsinə xidmət edəcəkdir.

***Nəzakət ƏLƏDDINQIZI***

# ABŞ-Rusiya münasibətləri və ƏRİMƏKDƏ OLAN "BUZLAR"

Fevralın 18-də Ər-Riyadda baş tutan görüşü siyasətçilər tarixi görüş hesab edirlər. ABŞ və Rusiya arasında münasibətlərin yoluna düşməsi, bir növ, münasibətlərin buza dönmüş halının "əriməyə" doğru irəliləməsi təkcə politoloqları deyil, ümumiyyətlə, dünya ictimaiyyətini, xüsusən də ukraynalılar və rusları daha çox düşündürür. Hər kəsi düşündürən, eləcə də sual doğuran məqam bəllidir və görəsən, Amerika-Rusiya münasibətlərində olan "soyuqluğun" aradan qalxmasına istinad edərək, Ukrayna münaqişəsinin nizamlanmasına başlanılmasından danışmaq olarmı? Daha dəqiq desək, dünyanın iki nəhəng ölkəsinin münasibətlərinin "müsbətə doğru" irəliləməsinin, münasibətlərin "donunun açılmasının", "buzların əriməsinin" ardınca gözləntilərin nədən ibarət ola biləcəyi ilə bağlı suallar yaranır.



### Hər iki tərəf etiraf edir ki, danışıqlar faktının özü artıq "nailiyyət" hesab olunur

Təxminən üç illik fasilədən sonra ABŞ və Rusiya hakimiyyətinin nümayəndələri arasında rəsmi görüşün baş tutması heç də diqqətdən yayına bilməz. Diqqətə çatdıraq ki, Səudiyyə Ərəbistanının paytaxtında Rusiya xarici işlər naziri Sergey Lavrov və Rusiya prezidentinin köməkçisi Yuri Uşakov dövlət katibi Marko Rubio, ABŞ prezidentinin xüsusi nümayəndəsi Stiv Vitkoff və Amerika prezidenti Trampın milli təhlükəsizlik üzrə müşaviri Mayk Vals ilə təxminən beş saat danışıblar olub. Sözsüz ki, əvvəla, danışıqlar olubsa, deməli, müzakirə olunmalı məsələlər var imiş və gündəm üçün vacib sayılırmış. Digər tərəfdən də, danışıqların düz beş saat davam etməsi də təsadüfi sayıla bilməz. Hər halda, kifayət qədər müzakirə mövzusu olub ki, danışıqlar bu qədər müddət tələb edib. Eyni zamanda, bəlli olur ki, belə uzun zaman danışıqlar aparılması müəyyən bir "ortaq məxrəcə" gəlmək istəyinin və niyyətinin olduğunu təsdiqləyir.

Hər iki tərəf etiraf edir ki, danışıqlar faktının özü artıq "nailiyyət" hesab olunur. Xüsusən də, hərbi əməliyyat başlayandan bu vaxta qədər Bayden adminstrasiyasının rəhbərliyi dövründə Vaşinqtonun Moskvanı "boykot" etmək planları, minlərlə sanksiya təşəbbüsü ilə çıxış etməsi və Rusiyanı bütün beynəlxalq təşkilatlardan kənarlaşdırmağa çalışması fonunda hazırki danışıqlara nailiyyət kimi baxılması məntiqidir. Belə çıxır ki, Amerikanın yenidən hakimiyyətə qayıdan prezidenti Donald Tramp və onun administrasiyası Cozef Baydenin səhvlərini nəzərə alıb və başa düşüb ki, qlobal, eləcə də regional problemləri həll etmək üçün Rusiya ilə "danışmaq" lazımdır. Bu artıq münasibətlərdə yaranan buzların əriməsinin vacibliyini başa düşmək kimi bir etiraf sayıla bilər. Elə Moskva da öz növbəsində NATO blokunun əsas ölkəsinin "hörmətini qazanmağı" vacib hesab edirmiş və Ağ Evin dialoqa hazırlığını yüksək qiymətləndirməsi də bu baxımdan diqqəti cəlb edir. Deməli, Rusiya da öz növbəsində münasibətlərə aydınlıq gətirilməsini, münasibətlərdə "donmuş buzların" əriməsinin vacibliyini qəbul edir. Beləliklə, hər iki tərəf münasibətlərin bərpasının nailiyyət olduğunu etiraf edir...

### Görüşün nəticələri ilə bağlı Kremlin qiymətləndirməsi

Dünya mətbuatında, xüsusən də Rusiyaya məxsus mətbuat səhifələrindən yayılan məlumatlardan bəlli olur ki, iki ölkənin nümayəndə heyəti arasında aparılan danışıqların gündəliyinə təkcə Ukrayna deyil, həm də ikitərəfli münasibətlər və qlobal təhlükəsizlik daxil olub. Doğrudur, səhbətin özü də gözlənildiyi kimi, eləcə də ənənəvi olaraq, "pərdə arxasında" qalıb. Lakin onun iştirakçılarının mətbuata verdiyi açıqlamalardan müəyyən nəticələr çıxarmaq olar. Həmin nəticələr isə, münasibətlərdə yaranan buzların əriməsini, hətta, yeni bir mərhələnin belə başlanmasını göstərir. Hər halda, tərəflərin "razı qalması" bunu deməyə əsas verir. Xüsusən də, Rusiya tərəfindən olan nümayəndə heyətinin üzvləri tərəfindən qeyd olunanlar müvafiq qənaətə gəlmək üçün yetərli sayıla bilər.

Diqqətə çatdıraq ki, Uşakov görüşün nəticələri ilə bağlı dəyərləndirməsini özünəməxsus tərzdə və qısa şəkildə bildirib. "Pis deyil", deyə Rusiya prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov görüşlə bağlı öz fikirlərini bölüşüb. Onun sözlərinə görə, ABŞ və Rusiya "ikitərəfli münasibətləri inkişaf etdirmək" barədə razılığa gəliblər. Prezidentin beynəlxalq məsələlər üzrə köməkçisinin sözlərindən belə məlum olur ki, tərəflər Ukrayna probleminin həlli üçün danışıqlar aparan qruplar yaratmağı planlaşdırırlar. Bununla belə, o da bəlli olur ki, Vaşinqton və Moskva münaqişənin həlli şərtləri ilə bağlı hələlik konsensusa malik deyillər. Lakin görünən odur ki, tərəflər buna çalışırlar. "Hələlik konsensusun, münaqişənin həllinin yaxınlaşdığını söyləmək çətindir, lakin bu barədə söhbət olub. Biz başqalarının da maraqlarını nəzərə alacağıq və ikitərəfli münasibətləri inkişaf etdirəcəyik", deyən Uşakov əslində, pozitiv əhval-ruhiyyənin olduğunu çatdıra bilib.

### ABŞ və Rusiya məhz Putinlə Tramp arasında "görüş üçün şərait" yaratmağa çalışır

Təbii ki, Rusiya və ABŞ-ın "bir-birinin maraqlarını nəzərə almağa" razı olması son dərəcə vacib məqamdır. Xüsusən də, tərəflərin əsas məqsədlərindən birinin məhz liderlər arasında, Vladimir Putin və Donald Tramp arasında görüş təşkil etmək olduğu da diqqəti cəlb etməyə bilməz. Doğrudur, Uşakov bildirir ki, qeyd olunan görüşün gələn həftə baş tutacağı ehtimalı çox azdır və xüsusən də nəzərə çatdırır ki, hələlik bununla bağlı konkret tarixlər də yoxdur. Lakin görünən odur ki, bu görüşün təşkilinə böyük "maraq" var. Qətiyyən diqqətdən yatınan deyil ki, ABŞ və Rusiya məhz Putinlə Tramp arasında "görüş üçün şərait" yaratmağa çalışır.

"Böyük dövlətlər dialoqu davam etdirməlidirlər", deyə bəyan edən Rusiya diplomatiyasının rəhbərinin bu fikirləri də təsdiq edir ki, hər iki ölkə liderlərinin, ABŞ və Rusiya prezidentlərinin gürüşünün təşkil edilməsinə böyük maraq var və səy də göstərilir. "Biz bir saata yaxın ikitərəfli münasibətlərimizdən danışdıq və dünyada mümkün olmayan tam razılıq əldə etməyin, heç olmasa böyük dövlətlərin istənilən şəraitdə normal, peşəkar dialoqu davam etdirməyə, bir-birini eşitməyə və buna uyğun olaraq baş verənlərdən dərs götürməyə, hər hansı münaqişə və böhranlara yol verməməyə hazır olmasının nə qədər vacib olmasından danışdıq", deyə mətbuat konfransı zamanı öz fikirlərini bölüşən Sergey Lavrov əslində, liderlərin görüşünün arzu olunduğunu bildirib. Deməli, iki ölkə lideri, Tramp və Putin arasında görüşün təşkili üçün böyük maraq da, istək də var və buna çalışılır da.

### Rusiya tərəfinin görüşdən "razı qalması" rəsmilərin, xüsusən də XİN rəhbərinin fikirlərində öz təsdiqini tapır

Rubio və Vitkoffla söhbəti Sergey Lavrov olduqca "faydalı" hesab edir. Onun sözlərinə görə, tərəflər bir-birini dinləməklə yanaşı, həm də bir-birlərini də eşidirdilər və belə məlym olur ki, bu məqam Rusiya XİN rəhbərinin özü üçün də olduqca qənaətbəxş sayılıb. Əks halda, o bu qədər pozitiv şəkildə münasibət bildirməzdi. Görünən odur ki, görüşün praktiki nəticəsi ABŞ və Rusiyanın diplomatik nümayəndəliklərinin işinin normallaşdırılmasına dair razılaşma olub. Tərəflər səfirlik işçilərinin ölkədən çıxarılması, onların əmlaklarının ələ keçirilməsi və bank köçürmələrinə məhdudiyyətlər kimi diplomatların işinə maneələrin aradan qaldırılmasını istəyirlər. Bu arada diqqətə çatdıraq ki, bütün bu sadalanan "maneələr" Baydenin prezidentliyi dövründə yaradılıb və belə məlum olur ki, indi nə ABŞ prezidenti Tramp, nə də onun adminstrasiyası bu vəziyyətin davamlı olmasını istəmir. Əslində, heç Rusiya tərəfi üçün də, rəsmi Moskvanın özü üçüm də bu vəziyyətin davamlı olması arzuolunmazdır.

Təsadüfi deyil ki, Lavrov digər nəticələr arasında məhz Ukrayna nizamlama prosesinin müzakirəsini və Vaşinqtonla Moskva arasında əməkdaşlığın bərpası üçün şəraitin yaradılmasını qeyd edib. Lavrov qeyd edib ki, Ukrayna ilə yanaşı, ABŞ və Rusiya əməkdaşlığı "tam həcmdə" qurmaq və onu iqtisadiyyata və geosiyasətə - qlobal münaqişələr zonasına yaymaq istəyir. Onun sözlərinə görə, Səudiyyə Ərəbistanında aparılan danışıqlar ABŞ-ın münasibətləri irəli aparmaq əzmində olduğunu göstərib. Rusiyalı nazir görüşə ev sahibliyi etdiyi üçün Ər-Riyada da təşəkkür etməyi unutmayıb və bu da onu göstərir ki, Rusiya XİN rəhbəri də görüşdən razı qalıb. Belə məlum olur ki, tərəflər arasında münasibətlərdə yaranan "soyuqluq" aradan qalxmaqdadır və "buzlar" əriməyə başlayıb...

### Amerika tərəfi də münasibətlərin normallaşdırılmasında maraqlı görünür və bunun üçün geniş səylər göstərir

Amerika nümayəndələri də görüşü təmkinli şəkildə müsbət qiymətləndiriblər. Məsələn, Marko Rubio özü belə uzun illər "donmuş" münasibətlərdən sonra görüşün gerçəkləşdiyini böyük ruh yüksəkliyi ilə vurğulayıb. "Düşünürəm ki, bu görüş vacib idi, çünki bizim Rusiya ilə demək olar ki, üç ilə yaxındır ki, ciddi əlaqələrimiz olmayıb. İndi gələcək müzakirələr üçün əsas var", deyə dövlət katibinin bildirdikləri ABŞ tərəfinin də görüşdən razı qaldığını təsdiqləyir. Əlbəttə ki, Rubionun məhz Ukraynadakı münaqişənin tez bir zamanda həll olunacağına dair "illüziyaları" yoxdur. O özü də yaxşı bilir ki, bunun üçün "mürəkkəb və gərgin diplomatiya" və müəyyən bir müddət tələb olunur. Amerika diplomatiyasının rəhbəri hətta hesab edir ki, yalnız hər tərəfdən güzəştlər və sülh üçün məqbul şərtlər bunu reallaşdıra bilər.

Eyni zamanda, sülh müvəqqəti olmamalıdır. Tramp müharibənin "2-3 ildən sonra" bərpa olunmasına, yəni, yenidən başlamasına imkan vermək istəmir. Ukraynadakı münaqişəni həll edəcəyinə söz verən Trampın özü üçün Barak Obamanın dövründə bağlanmış kövrək "Minsk razılaşmaları"nın təkrarlanması Respublikaçılar Partiyasının növbəti prezident seçkilərində perspektivləri üçün böyük uğursuzluq olardı. Məntiqi nöqteyi nəzərdən də yanaşdıqda görürük ki, Rubio məhz ABŞ və Rusiya arasında əməkdaşlığın arzulunan perspektivlərini görməkdə maraqlıdır. Bilir ki, onun yolu Ukraynadakı münaqişənin sona çatması ilə açılacaq. Elə bu səbəbdəndir ki, Ər-Riyaddakı görüşdən sonra dövlət katibi "gələcək əməkdaşlığın əsasının" qoyulduğunu həvəslə bildirib.

Belə məlum olur ki, danışıqların növbəti mərhələsi diplomatik nümayəndəliklərin işinin bərpası olacaq. Çünki ABŞ özü belə "diplomatik missiyaların normal işi olmadan" Rusiya ilə Ukrayna üzrə dialoqun aparılmasını mümkün hesab etmir. Məhz elə Marko Rubio özü də açıq şəkildə bildirib ki, diplomatik münasibətlərin bərpasının kifayət qədər "tez" reallaşdırmaq lazımdır. Deməli, həqiqətən də artıq münasibətlərin normallaşdırılması istiqamətində "işlər" aparılır. Daha dəqiq desək, təkcə Rusiya deyil, Amerika tərəfi də münasibətlərin normallaşdırılmasında maraqlı görünür və bunun üçün geniş səylər göstərir. Belə çıxır ki, həqiqətən də iki ölkə arasındakı münasibətlərdə yaranan "soyuqluq" aradan qaldırılır və münasibətlərdə yaranan "buzlar" əriməyə başlayır...

*İnam Hacıyev*

# Xocalı soyqırımı - erməni faşizminin gerçək üzü!

## *Xocalı faciəsindən 33 il ötür*

Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin amansız şəkildə etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmışdır. Nəticədə 2 milyondan çox azərbaycanlı erməni vandalizminin qurbanı olmuş, yüzlərlə şəhər, kənd və qəsəbə dağıdılmış, tarixin müxtəlif səhifələrini özündə yaşatmış memarlıq nümunələri yer üzündən silinmişdir. 1918-ci ili 31 mart soyqırımının ardınca ermənilər öz qəsbkar, vandal siyasətlərini sovetlər birliyi tərkibində olduğumuz dövrlərdə də davam etdirmişdir. Mövcud faktlara və sənədlərə əsasən 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunmuşdur. Öz doğma yurd-yuvalarından qovulan Qərbi Azərbaycanlılar respublikamızın müxtəlif bölgələrində o cümlədən də Kür-Araz düzənliyində yerləşdirilmişdir. Fərqli mühitin mövcudluğu yüzlərlə azərbaycanlının həyatına son qoymuşdur. Sonrakı mərhələdə, yəni 1988-ci ildə isə Ermənistanın terrorçu hərbi xuntasının məkrli siyasəti nəticəsində öz tarixi torpaqlarında yaşayan 300 minə yaxın Qəbi Azərbaycandan didərgin salınmışdır. Sovetlərin dağılması ərəfəsində xarici havadarlarının hərbi siyasi, maliyyə dəstəyinə arxalanan ermənilər Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağa iddia etməyə başlamışdır. Hər cür müasir silah-sursatla təchis olunan ermənilər öz məkrli siyasətlərini həyata keçirmək üçün davamlı olaraq Azərbaycanın ərazilərinə xain basqınlar etmişdir. Bu cür quldur basqınları nəticəsində Azərbaycanın yüzlərlə kənd və qəsəbələri, şəhərləri dağıdılmış, on minlərə günahsız insan qətlə yetirilmiş, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsinə nail olmuşdur. Erməni vəhşiliyi, vandalizmi Qarabağın hər bir kənd və qəsəbələrində, şəhərlərində özünü göstərib. O yerlərdən biri də, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə yer üzündən silinən, Xocalı şəhəridir.




### Sivil dünyanın sarsıldığı 1992-ci il fevralın 25-dən 26-a keçən gecə

Bəşəriyyətə və insanlığa qarşı olan Xocalı soyqırımı dünya tarixinin ən qanlı, ən amansız səhifələrindəndir. Erməni terrorçu silahlı dəstələri SSRİ dövründə Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərinə hücün edərək dünyanı sarsıdan vəhşiliklər həyata keçirmişlər. Şəhərə quldur hücumdan öncə erməni terrorçuları Xocalını toplarla şiddətli atəşə tutulmuş və şəhərdə yanğınlar törətmiş dinc, əliyalın insanlar arasında təşviş yaratmışlar. Fevralın 26-ı səhər saat 5 radələrində şəhər tam alova bürünmüş və şəhərdə qalmış təqribən 2500 nəfər əhali çarəsiz duruma düşmüşlər. İnsanlar Ağdama çatmaq və xilas olmaq ümüidi ilə Xocalını tək etsələrdə istəklərinə nail ola biməmişlər. Xocalını zəbt edən erməni -rus hərbi biləşmələri dinc əhalini yollarda yaxalayaraq, onlara divan tutmuşlar. Törədilən vəhşilik nəticəsində 613 nəfər həlak olmuşdur, onlardan 63 nəfər uşaq, 106 nəfər qadın, 70 nəfər qoca, 8 ailə tamamilə məhv edilmişdir. 25 uşaq hər iki valideynini itirmişdir. 130 uşaq valideynlərindən birini itirmişdir. 487 nəfər yaralanmışdır, onlardan 76 nəfər uşaq olmuşdur. Ümumilikdə 1275 nəfər əsir götürülmüşdür, 150 nəfər itkin düşmüşdür. ERmənilərə Xocalıda törətdikləri soyqırımı aktı ilə bağlı dünyanın müxtəlif nüfuzlu nəşrləri kədərli informasiyalar paylaşmışlar: Krua l'Eveneman jurnalı (Paris), 25 fevral 1992-ci il: Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu. Azərbaycanlılar minlərlə ölənlər barədə xəbər verirlər. Sandi Tayms qəzeti (London), 1 mart 1992-ci il: Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər. Faynenşl Tayms qəzeti (London), 9 mart 1992-ci il: Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar.



Tayms qəzeti (London), 4 mart 1992-ci il: Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır. İzvestiya (Moskva), 4 mart 1992-ci il: Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür.Faynenşl Tayms qəzeti (London), 14 mart 1992-ci il: General Polyakov bildirmişdir ki, 366-cı alayın 103 nəfər erməni hərbçisi Dağlıq Qarabağda qalmışdır.Le Mond qəzeti (Paris), 14 mart 1992-ci il: Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxardılmış 3 nəfəri görmüşlər. Bu, azərbaycanlıların təbliğatı deyil, bu, reallıqdır.

İzvestiya (Moskva), 13 mart 1992-ci il: Mayor Leonid Kravets: Mən şəxsən təpədə yüzə yaxın meyit gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü.Valer aktuel jurnalı (Paris), 14 mart 1992-ci il: Bu "muxtar regionda" erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər yüzdən artıq müsəlman kəndlərində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər.R. Patrik, İngiltərənin "Fant men nyus" teleşirkətinin jurnalisti (hadisə yerində olmuşdur):Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz.

### "Xocalıya ədalət" kampaniyası çərçivəsində "İslam Konfransı Təşkilat"ında Xocalı qətliamını soyqırımı kimi tanıtmaq mümkün olub

Bəşəriyyəti sarsıdan, insanlığa qarşı erməni soyqırımı haqqında dünyanın nüfuzlu siyasi icmalçıları, hökumət və dövlət adamları ürək ağrısı ilə fikirlər səsləndirirlər. Azərbaycan xalqının ziyalıları, elm adamları müxtəlif beynəlxalq tədbirlərdə, konfranslarda ermənilərin Xocalıda törətdikləri soyqırımı aktları ilə bağlı fotolara paylaşır, ciddi, əsaslı çıxışlar edirlər. Məhz bu cür fəallığın nəticəsidir ki, artıq 10-a yaxın dövlətin parlamenti tərəfindən ermənilərin Xocalıda törətdiləri vəhşilikləri soyqıqmı aktı olaraq tanıyıblar. Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması ilə bağlı məqsədyönlü, ardıcıl təbliğiya həyata keçirilir. Məhz bunun sayəsində Azərbaycan həqiqətləri, o cümlədən, Xocalı soyqırımı ilə bağlı faktlar dünya ictimaiyyətinə çatdırılır. Burada ən böyük missiya Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın başlatmış olduğu "Xocalıya ədalət" kampaniyası ilə həyata keçirilir desək səhv etmərik. Məhz Azərbaycan gəncliyinin aparıcı qüvvəsi olan Leyla xanım Əliyevanın apardığı məqsədyönlü təbliğat, xüsusi ilə də, "Xocalıya ədalət" kampaniyası



çərçivəsində "İslam Konfransı Təşkilat"ında Xocalı qətliamını soyqırımı kimi tanıtmaq mümkün olub.

Həmçinn, Azərbaycanın dünyada fəaliyyət göstərən diaspor təşkilatları da Xocalı soyqırımı və digər milli məsələlərimizlə bağlı olduqca mühüm işlər həyata keçirirlər. Bütün bunların nəticəsi olaraq, artıq dünyanın aparıcı ölkələri Azərbaycan xalqının başına gətirilən faciələri, soyırımı və etnik təmizləmə siyasəti kimi dərk edir. Yəni 1992-ci ilin fevral ayının 25-dən 26-a keçən gecə Xocalı şəhərində azərbaycanlılara qarşı edilmiş vəhşilik, həyata keçirilmiş soyqırımı aktını dünya ictimaiyyəti də qəbul edir. Artıq bu gün Azərbaycanda mövcud olan möhkəm ictimai-siyasi sabitlik, iqtisadi inkişaf imkan verir ki, ölkəmizlə bağlı ən real və həqiqi faktları dünya ictimaiyyətinə olduğu kimi çatdıra bilək. Ulu Öndər Heydər Əliyev siyasətinin ən layiqli davamçısı olan Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində dünya ictimaiyyəti, dünya birliyi Azərbaycanın həqiqətləri ilə maraqlanır və dərk edir.

### Soyqırımı törədənlərin şəxsiyyəti ilə bağlı beynəlxalq təşkilatlara müraciətlər olunub

Xocalıda erməni-rus hərbi birləşmələrinin həyata keçirdikləri qətliamların xüsusi amansızlıqla həyata keçirilməsi hadisə yerində olmuş ingilis, fransız, rus, amerikan, gürcü, alman və digər ölkələrin vətəndaşı olan jurnalist və blogerlərini dəhşətə gətirmişdir. Ermənilər sağ qalmış insanlar başının dərisini soymuş, başlarını və bədəninin digər orqanlarını kəsmiş, uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarnını yarmışdılar. Hücum zamanı Xocalıda istifadəsi qadağan olunmuş 5,45 kalibrli patronlardan və kimyəvi silahlardan istifadə edilmişdir. Xocalıda həyata keçirilmiş soyqırımı faktının iştirakçıları və icraçıları da bəllidir. Xocalı soyqırımı ilə bağlı Azərbaycan Respublikasının prokurorluğunda Xocalının işğalına dair istintaq materiallarına görə, 7 min insanın yaşadığı Xocalıya hücumda Ermənistanın keçmiş müdafiə naziri Ohanyan Seyran Muşeqoviçin (o zaman qondarma "DQR"nın "müdafiə naziri" olub) komandanlığı altında 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokixinin komandası altında 3-cü batalyonun, 1 saylı batalyonun qərargah rəisi Çitçyan Valeriy İsayeviç və alayda xidmət edən 50-dən artıq erməni zabit və praporşik iştirak etmişdir. Soyqırımı törədənlərin şəxsiyyəti ilə bağlı beynəlxalqı təşkilatlara müraciətlər olunub. Yəni Xocalıya hücum edən erməni-rus hərbi birləşmələrinin komandirlərinin hər birinin adları və törətdikləri qətliamlar Azərbaycan ictimaiyyətinə məlumdur. Ona görə də, biz qətliamları törədənlərin cəzasız qalmaması üçün fəaliyyətimizi dahada gücləndirməliyik. Kimliyindən asılı olmayaraq, hər bir azərbaycanlı, xaricdəki dostlarımız, müxtəlif ölkələrdəki lobbi təşkilat nümayəndələri öz əməlləri ilə böyük aktivlik nümayiş etdirməlidir. Nəhayət, qətliamları törədənlər layiq olduqları cəzanı alsınlar. Necə ki, Kosovoda Priştina faciəsini törədənlər Haaqa tribunalı qarşısında cavab verdilər, o cümlədən də, biz də nail olmalıyıq ki, Xocalı soyqırımını törədənlər məhz həmin tribunal qarşısında cavab versinlər.

Bugünkü hadisələrin inkişafına əsasən demək olar ki, xocalıların qisası döyüş meydanında ermənilərin cəzalandırılması ilə alınıb. Artıq xocalıların ruhu şaddır və digər işğal altında olmuş ərazilərimiz kimi Xocalı şəhəri də azad nəfəs alır. Şəhərin hər yerində geniş quruculuq, abadlıq, bərpa işləri həyata keçirilir və insanlar tədricən öz doğma yurdyuvalarına qayıdaraq bölgəyə yeni həyat bəxş edirlər. Bu arada həm də Xocalıda cəlladlıq edib, insanları vəhşicəsinə öldürən şəxslər də ədalət məhkəməsi qarşısına çıxarılıblar. Əminik ki, Xocalıda insanlara qarşı vəhşiliklər etmiş Arayik, Qukasyan, Saakyan və digərləri məhkəmənin ədalətli qərarı ilə layiq olduqları cəzanı ala biləcəklər.

***İLHAM ƏLİYEV***

***Vətənin cənub-qərbində, dağlıq ərazidə yerləşir Laçın. Şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları ilə qardaşlaşıb, qərbdən Ermənistanla həmsərhəddir. Laçın düşmənlə Qarabağ arasındakı keçilməz səddir, alınmaz qaladır. Adına nəğmələr oxunan, işğalına bayatılar düzülən Laçın 28 il əsarət altında qaldıqdan sonra müzəffər Azərbaycan ordusu tərəfindən heç bir itki verilmədən azad edildi.***

# Qarabağın mərdlik qalası - Laçın




## Qurulu rayonu işğal edib xarabalığı təhvil verdilər

Azərbaycan Ordusu tərəfindən Ermənistanın 2020-ci il sentyabrın 27-də olan təcavüzünə qarşı başlanan əks-hücum əməliyyatı 2020-ci il noyabrın 9-da böyük Zəfərlə başa çatdı. Ardıcıl olaraq torpaqlarımızın işğaldan azad edilməsi düşmən ölkədə şok effekti yaratdı. Noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə müharibədə məğlub olduğunu qəbul edən Ermənistan məcburiyyət qarşısında qalaraq kapitulyasiya aktına imza atdı. Sənədə görə Ağdam, Kəlbəcər rayonu və Laçın rayonları Azərbaycana qaytarıldı. Beləliklə, Laçının 28 illik işğalına 2020-ci il dekabrın 1-də son qoyuldu. Azərbaycan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğaldan azad edilməsinə heç bir itki vermədən nail oldu.

İşğal edərkən qurulu evlər, hazır təsərrüfatları ələ keçirən ermənilər bəyanatın imzalandığı gündən rayonun boşaldılmasınadək olan 20 gün müddətində Laçında daşı-daş üstündə qoymadılar. İşğal müddətində Laçın şəhərini və rayonun yaşayış məntəqələrini talanıb, darmadağın edilib, tarixi, mədəni, dini abidələr, qəbiristanlıqlar yer üzündən silinib.





## Laçının bütün infrastrukturu məhv edilmişdi

"Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Müzəffər lider İlham Əliyev 2020-ci ilin 1 dekabrında televiziya ilə müraciətində Laçın rayonunun işğaldan azad edilməsi münasibətilə Azərbaycan xalqını belə təbrik etmişdi. İşğaldan azad edildikdən sonra Laçının şərəfinə Azərbaycan Respublikasında "Laçının azad olunmasına görə" medalı təsis olunub.

2021-ci ilin 21 sentyabrında Laçın şəhərində Azərbaycan Bayrağını ucaldan Prezident İlham Əliyev rayonda erməni vandalizminin izlərinin silinməsi üçün dövlətin bütün gücünü səfərbər edəcəyindən danışdı. Prezident bildirdi ki, Laçın şəhəri işğal altında olmuş bütün başqa yaşayış məntəqələri kimi erməni vandalizminə məruz qalıb: "Erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var. Ağdam şəhəri tamamilə yerlə-yeksan edilib, Füzuli şəhəri də, həmçinin Cəbrayıl şəhəri də, bütün kəndlər. Bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmışdılar, Ermənistandan və daha çox xaricdən - Suriya və Livandan erməni əsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər. Bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş verib".

Qeyd edək ki, işğal dövründə Laçın şəhərinin böyük hissəsi tamamilə viran qoyulub, dağıdılıb. Ancaq bəzi yerlərdə qanunsuz məskunlaşma aparılıb. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, Minsk qrupunun həmsədrləri buna, sadəcə olaraq göz yumurdular. Azərbaycan toponimlərinin sıradan çıxarılmasına, tarixinin silinməsinə icazə verirdilər.

## Ermənilər üçün Laçın niyə əhəmiyyətli idi?

Laçın dəhlizi Gorus - Şuşa - Kəlbəcər - Qubadlı arasında yerləşən strateji baxımdan çox əhəmiyyətli coğrafi ərazidir. Azərbaycan torpağı Laçının işğal edilməsi ermənilərin uzun illər ərzində qurduğu ən vacib plan idi. Onlar plan üzərində ilmə-ilmə işləmişdilər. Çünkü Laçının ələ keçirilməsi Ermənistanın Qarabağa gedən yolunun istədikləri kimi açılması demək idi. Laçının rayon statusu alması o vaxtkı Azərbaycan hakimiyyətinin ermənilərin mənfur niyyətinə qarşı hesabladığı ən tutarlı maneə idi.

Ərazi etibarı ilə təbii resurslarla zənginliyi Laçın "koridor"unun əhəmiyyətini daha da artırırdı. Zəngəzur silsiləsinin bütün zirvə hissəsinin öz başlanğıclarını Laçın dəhlizindən götürdüyünü desək, yanılmarıq. Bu dağ silsiləsi qalın otlaqlı yaylaqlardan, böyük çınqıllıqlardan, yeraltı və yerüstü mədənlərdən, mineral yataqlarından, silsilənin ətəkləri isə nadir növlü ağaclara malik enliyarpaqlı meşələrdən ibarətdir. Laçının tarixi abidələri onun ömrünün eramızdan əvvələ qədər uzandığından xəbər verir.

Laçın dəhlizi Qarabağla Zəngəzur arasında möhtəşəm bir körpü rolunu oynayır. Bu dəhlizə nəzarət kimin əlindədirsə, Qarabağ və Zəngəzur ərazilərinə də diktə edən tərəf odur. Faktiki olaraq, Laçın ərazisi olmadan Ermənistanın Qarabağı işğal altında saxlaya bilməsi hərbi cəhətdən mümkün deyil. Məhz bu səbəbdən Ermənistan Laçın "koridor"unu özü üçün vazkeçilməz hesab edirdi və geri verməmək üçün bütün mümkün və qeyri-mümkün vasitələrə əl atdılar.

## Laçın yenidən quruldu

İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma, abadlaşdırma işləri dayanmadan aparılır. Güləbird kəndində Su Elektrik Stansiyasının açılışı oldu, üstəlik bu Laçın rayonu işğaldan azad olunandan ay yarımdan sonra baş verdi. Dövlətimizin başçısı 2021-ci il avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı Kəlbəcər-Laçın avtomobil yolu üzərində inşa olunacaq tunelin və Laçın Beynəlxalq Hava Limanının təməlini qoydu. 2022-ci ilin 21 sentyabrında İlham Əliyev Laçın şəhərində inşa ediləcək "Laçın" qovşaq yarımstansiyasının təməlqoyma mərasimində iştirak etdi.

Laçın yenidən qurulur. Rayonun Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı 2022 - ci ilin dövlət büdcəsindən 800 min vəsait ayrıldı. Laçın şəhərinin bütün infrastrukturu yeniləndi- su xətləri, kanalizasiya xətləri, elektrik enerjisi xətləri, tunellər salınır, beynəlxalq hava limanı tikildi, bu il istifadəyə veriləcəyi gözlənilir, 50 kilometrdən çox daxili yollar yenidən quruldu. Laçınlı ailələr geri qayıdır, məcburi köçkünlər öz torpaqlarına dönür. Bu gündək Laçında təxminən 600 ailənin, yəni 2090 nəfərin daimi məskunlaşması təmin edilib. Laçın rayonu region üçün mühüm coğrafi mövqeyə malikdir, həyata keçirilən bərpa və yenidənqurma işləri strateji mövqelərimizi daha da möhkəmləndirəcək.

***Lalə Mehralı***



# "Suverenliyin bərpası: siyasi müstəvidə yeni münasibətlər sisteminin formalaşdırılması"

## Prezident Administrasiyası tərəfindən fevralın 24-də bu mövzuda dəyirmi masa təşkil olunub

***Siyasi partiyalarla dövlət orqanları arasında konstruktiv əməkdaşlığın inkişaf etdirilməsi, eləcə də siyasi dialoq mühitinin təşviq olunması məqsədilə Prezident Administrasiyası tərəfindən fevralın 25-də "Hilton Baku" hotelində dəyirmi masa təşkil olunub. AZƏRTAC xəbər verir ki, dəyirmi masada Milli Məclis Aparatının, Mərkəzi Seçki Komissiyasının, Ədliyyə və Maliyyə nazirliklərinin, Hesablama Palatasının, 25 siyasi partiyanın nümayəndələri, həmçinin tanınmış alimlər, politoloqlar, siyasi şərhçilər, internet televiziya kanalları və onlayn media subyektlərinin nümayəndələri iştirak ediblər.***

Tədbiri giriş sözü ilə açan Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ötən dövr ərzində mövcud istiqamətdə görülmüş işlər haqqında danışaraq, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı olaraq müxtəlif siyasi qüvvələr arasında konstruktiv əməkdaşlıq, sağlam siyasi dialoq və ümummilli məsələlərdə həmrəylik mühitinin təşviq olunduğunu bildirib.









Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbənin bütün dünya azərbaycanlılarının qürur mənbəyi olduğunu xüsusi vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, qızıl hərflərlə yazılmış bu unudulmaz tarix dövlətimizə ərazi bütövlüyü və suverenlik bəxş etməklə Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub.




Yeni siyasi konfiqurasiya haqqında söhbət açan Ə.Vəliyev dövlət idarəetməsinin davamlı inkişafı naminə cəmiyyətdə mövcud potensialın səfərbər olunmasında siyasi partiyaların rolunu vurğulayaraq, sağlam əməkdaşlıq mühitinin sabitliyi və tərəqqini təmin edən əsas amillər olduğunu ifadə edib. Administrasiya rəsmisi 2022-ci ilin dekabrında qəbul edilmiş "Siyasi partiyalar haqqında" Qanunun əhəmiyyətindən danışarkən bildirib ki, yeni Qanun ölkənin partiya sisteminin keyfiyyətcə daha böyük inkişafına zəmin yaratmaqla, bütün siyasi partiyaların ilkin imkanlarını tarazlaşdırıb və partiyaların ?evrilməsinə xidmət edib.

2024-2025-ci illərdə keçirilən Prezident, parlament və bələdiyyə seçkilərində siyasi partiyaların fəal iştirakı haqqında danışan Ə.Vəliyev partiyaların mütləq əksəriyyətinin seçkilərdə iştirakını demokratik münasibətlərin təzahürü kimi dəyərləndirib və bu iştirakçılığın partiyaların siyasi institut kimi daha da təkmilləşməsinə və inkişafına müsbət təsirlərini qeyd edib.

Tədbirdə çıxış edən dövlət orqanlarının nümayəndələri - Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Mərkəzi Seçki Komissiyası sədrinin birinci müavini Rövzət Qasımov, ədliyyə nazirini müavini Abiddin Hüseynov, maliyyə nazirinin müavini Azər Bayramov, Hesablama Palatası sədrinin müavini Nəsir Sadıqov siyasi partiyaların fəaliyyətinin tənzimlənməsinin müxtəlif aspektlərinə toxunaraq, dövlətin mövcud istiqamətdə gördüyü işlər barəsində ətraflı məlumatlar veriblər. Tədbirdə siyasi partiya üzvlərinin reyestrinin aparılması, bu sahədə qanunvericilikdə edilmiş son dəyişikliklər, siyasi partiyaların seçkilərdə fəal iştirakı, partiyalara dövlət büdcəsindən ayrılan maliyyə yardımları, bu yardımların xərclənməsi, hesabatlılıq, partiya sədrlərinin mediadakı fəaliyyəti, onların siyasi dialoqun dərinləşməsi prosesində rolu və digər bu kimi məsələlər geniş müzakirə olunub.

Daha sonra siyasi partiya (Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Ədalət, Hüquq, Demokratiya Partiyasının sədri Qüdrət Həsənquliyev, Haqq Ədalət Partiyasının sədri Əli İnsanov, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev, Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağa-zadə, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, AĞ Partiyasının sədri Tural Abbaslı, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu, REAL Partiyası Siyasi Komitəsinin sədri Natiq Cəfərli, Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev), elm (AMEA-nın Fəlsəfə və Sosiologiya institutunun direktoru İlham Məmmədzadə) və media ("Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu) nümayəndələri çıxış edərək müzakirə olunan məsələlərə öz münasibətlərini ifadə edib, cəmiyyəti narahat edən məsələlərin daha səmərəli həllinin tapılmasında siyasi partiyaların rolunu vurğulayıblar.

Tədbir iştirakçıları birmənalı olaraq bəyan ediblər ki, milli maraqlar və milli birliyin qorunması naminə ölkənin bütün vətənpərvər və intellektual qüvvələrinin səfərbər olması zəruridir. Tədbirdə çıxış edən siyasi partiyaların sədrləri və təmsilçiləri ümummilli məsələlərdə hər zaman açıq əməkdaşlığa hazır olduqlarını bildirərək cəmiyyətin parçalanmasına yönəlmiş istənilən təxribatı sərt şəkildə qınayıblar.

Tədbir dövlət orqanlarının təmsilçiləri tərəfindən siyasi partiya nümayəndələrinin çoxsaylı suallarının cavablandırılması və müzakirələrlə davam edib.

İştirakçılar bu qəbildən olan tədbirlərin mütəmadi təşkilinin və hər bir siyasi təsisatın belə təşəbbüslərdə fəal iştirak etməsinin faydalı olacağını dilə gətiriblər.

Tədbirdə aşağıda adları qeyd edilən siyasi partiyalar iştirak edib:

Yeni Azərbaycan Partiyası
Vətəndaş Həmrəyliyi Partiyası
Böyük Quruluş Partiyası
Ana Vətən Partiyası
Ədalət, Hüquq, Demokratiya Partiyası
Demokratik İslahatlar Partiyası
Azərbaycan Demokratik Maarifçilik Partiyası
Milli Cəbhə Partiyası
Azərbaycan Milli İstiqlal Partiyası
Böyük Azərbaycan Partiyası
REAL Partiyası
Haqq Ədalət Partiyası
Azərbaycan Ümid Partiyası
Azərbaycan Demokrat Partiyası
Azərbaycan Xalq Partiyası
Vəhdət Partiyası
Ədalət Partiyası
Klassik Xalq Cəbhəsi Partiyası
Milli Dirçəliş Hərəkatı Partiyası
AĞ Partiyası
Azad Vətən Partiyası
Müasir Müsavat Partiyası
Gələcək Azərbaycan Partiyası
Yeni Zaman Partiyası

# Son zamanların trendi: BUZLU SUDA DUŞ ALMAQ

**Son zamanlar bir sıra sosial şəbəkələrdə qarlı havada dənizdə və ya hovuzda üzüb videogörüntülər paylaşan şəxslərin sayı artıb. Bir növ bu trendə çevrilib. Bəs, soyuq havada buzlu suda çimməyin hansı zərər və faydaları var?**



SİA mövzu ilə bağlı araşdırma aparıb.

Soyuq havada üzməyin insan orqanizminə və immunitetinə təsirlərini təqdim edirik:

**1. İmmunitet sistemini gücləndirir**

Soyuq su, bədən dəyişən şərtlərə cavab verməyə məcbur olduğu üçün ağ qan hüceyrələrinin sayını artırmağa kömək edir. Ağ qan hüceyrələrindəki bu artım bədənin müdafiəsini daha təsirli etməyə imkan verir. Xəstəliklərə qarşı müqavimətiniz artır və özünüzü daha canlı hiss edə bilərsiniz.

**2. Ağrı həddini artırır**

Soyuq suda üzmək endorfinləri aktivləşdirir. Endorfinlər, fəaliyyətlər zamanı özünüzü yaxşı hiss etmək üçün beyninizin istehsal etdiyi bir kimyəvi maddədir. Üzgüçülük əla kardio məşqdir və depressiyaya müsbət təsir göstərir. Bundan əlavə, soyuq suda üzmək ağrı həddini artırır və ifraz olunan endorfinlər ağrının öhdəsindən gəlməyə kömək edir.

**3. Qan dövranını yaxşılaşdırır**

Soyuq suda üzmək damarlarınızı və kapilyarlarınızı təmizləyir. Qanı səthə itələyir və bədəni istiləşdirməyə kömək edir. Təkrar məruz qalma insanı soyuğa uyğunlaşdırır.

**4. Özünə inamı artırır**

Özünüzü soyuq suda qalmağa məcbur etmək prosesi zehni güc artırıcı təsir göstərə bilər. Rahatlıq zonanızdan çıxmaq sizə nəinki müvəffəqiyyət hissi verir, həm də inam və cəsarət yaradır və həyatın digər sahələrində möhkəmliyinizi artıra bilər.

**5. Fərqində olmağı artırır**

Soyuq suya girdiyiniz zaman sinir sisteminizi həddindən artıq yükləyirsiniz. Sinir ucları beyninizə bədəninizin nə qədər soyuq olduğunu bildirir. Beyninizin məhdud bant genişliyi var və sıx su hissi ilə beyninizin görüləcək işlər siyahısını nəzərdən keçirməyə və ya soyuqdan başqa bir şey üçün narahat olmağa yer yoxdur. Soyuq suda üzgüçülük zehinlilik məşqləri ilə çox ortaq cəhətlərə malikdir və gündəlik düşüncələrdən fasilə verir.

**6. Libidonu artırır**

Soyuq suda üzmək estrogen və testosteron istehsalını artırır, məhsuldarlıq və libidoya üstünlük verir. Libidonun artması ilə yanaşı, özünə inam və əhval-ruhiyyənin yaxşılaşması müşahidə edilə bilər.

**7. İltihabı azaldır**

Buz vannaları bütün dünya üzrə elit idmançılar tərəfindən performans sonrası bərpaya kömək etmək üçün istifadə olunur. Bədəniniz orqanları qorumaq üçün qanı ətraflardan uzaqlaşdıraraq soyuğa cavab verir. Əzalara qan axınının azalması iltihabı azaldır və əzələlərin daha sürətli sağalmasına imkan verir. Soyuq suda üzmək buz vannasının bütün faydalarını təmin edə bilər.

**8. Metabolizmsürətini artırır**

Ürək soyuq suda qanı daha sürətli vurur və üzgüçülük zamanı bədəni isti saxlamaq üçün daha çox çalışır. Ürək daha çox qan pompalayır və hüceyrələr bədəni isti saxlamaq üçün daha çox çalışır, maddələr mübadiləsi sürətini və gündəlik kalori xərclərini artırır.

Everest dağının 6400 metr hündürlüyündə buzlu suda üzərək dünya rekordu qıran və Manş, Catalina Kanalı və Manhetten adasında üzərək "Üçlü Tac" adını qazanan Deniz Kayadelen açıqlamalar verib.

Bakırköy Ata İdman Klubunun idmançısı Deniz Kayadelen, "Üçlü Tac" ünvanının açıq suda üzgüçülükdə ən prestijli mükafatlardan biri olduğunu ifadə edərək, "Bu titulu ancaq Manş, Catalina Kanalı və Manhetten adasında üzməklə əldə edə bilərsiniz. Bu titulu almaq böyük uğurdur. Bu titulu əldə etmək üçün indiyə qədər ən sürətli üç türk qadını əldə etdi. Triple Crown titulu məni qürurlandırdı." ifadələrdən istifadə etdi.

Kayadelen "Üçlü Tac" titulunu alarkən çox çətinlik çəkdiyini ifadə edərək bunları qeyd edib: "İşimlə yanaşı, La-Manş dənizində üzmək üçün də məşq etdim. Bu çağırışa illərdir psixoloji olaraq hazırlaşdım. Bu, sadəcə, fiziki çətinlik deyildi. Mən 15 ildir ki, Manş boğazını keçmək arzusunda idim. Son 3 ildə soyuq sularda üzməyə başladım. Qorxularımı necə dəf edə biləcəyimi düşünərkən, buz kimi suda üzməyə başladım və kilo almağa başladım

Everest dağında üzmək üçün 6400 metr yüksəkliyə qalxdığını ifadə edən Kayadelen, "Alpinizm təcrübəm yox idi. 15 gün çadırlarda yatdım. Nə telefon, nə də internet var idi. Dünyadan təcrid olunmuşdum. Təxminən 2 saat davam edən bir komanda ilə yola çıxmışdım. Son 200 metrdə oksigen səviyyəm əhəmiyyətli dərəcədə düşmüşdü" dedi.

Məqsədinin yalnız üzgüçülük olmadığını vurğulayan Kayadelen, "Rahatlıq zonamızdan kənara çıxanda çox şey öyrənirik və özümüzü təkmilləşdiririk. Beynimiz sərhədlərlə doludur. Bu sərhədləri aşdıqca nə edə biləcəyimizi görürük. Düşünürəm ki, hər bir çətinlik bizə bir şey öyrədir. Qorxduğum sahələri inkişaf sahəsi kimi görürəm. Bu qorxularımızı aşmaq istəyirik. 5 il əvvəl bəhanələrə baxmayaraq necə inkişaf edəcəyimizi düşünmək lazımdır, "Üçlü Tac" unvanını qazanacağımı düşünməzdim".

Hər uğurunu Türkiyə bayrağını qaldıraraq qeyd etdiyini deyən Deniz Kayadelen, "Mənim həm Almaniya, həm də Türkiyə vətəndaşlığı var. Türk qadınlarının edə bilməyəcəyi heç bir şey yoxdur. Bunu göstərmək istəyirəm. Əzmlə, çalışmaqla, fədakarlıqla çox şeyə nail ola bilərik. Türk qadınlarına, gənclərinə mesaj vermək istəyirəm. Onlar özlərinə böyük bir hədəf qoysunlar, amma orada kiçik addımlar atsınlar".

## "Türkiyə üzgüçüləri soyuq sudan qorxurlar"

Türkiyənin açıq suda üzgüçülük üçün böyük potensiala sahib olduğunu ifadə edən Kayadelen, "Ölkə olaraq əla vəziyyətdəyik. Dənizlərlə əhatə olunmuş bir ölkəmiz var, amma bu potensialdan istifadə etmirik. Türk üzgüçülərin soyuq su qorxusu var. Dünya Buz Çempionatına cəmi 2-3 türk qatılır. Bu təşkilata daha çox türkün qatılmasını istəyirəm. Türkiyə üzgüçülüyünə daha çox maraq göstərməlidir" dedi. qiymətləndirmə aparıb.

Gələcək hədəflərinə də toxunan Kayadelen, "Hər zaman birinci olmağı qarşısına məqsəd qoymuşam. Everest dağında 6400 metr hündürlükdəki buzlu suda üzərək dünya rekordu qırdım. İndi heç kimin kəşf etmədiyi qütblərdə və ərazilərdə üzmək istəyirəm. "Okean yeddiliyi" adlı bir qurum var ki, oradan 7 mərhələdən ibarət layihələri davam etdirəcəyəm." O, belə danışdı.

***Ayşən Vəli***

# Tramp Ukraynanı özəlləşdirir və...

**ABŞ prezidenti Donald Tramp Ukraynanın mineral ehtiyatlarının Amerikanın ona verdiyi yardıma görə təzminat olaraq Vaşinqtona təhvil verilməsinə dair sazişin tezliklə bağlanacağını açıqlayıb. Müqavilə layihəsində ölkə iqtisadiyyatının strateji sahələrinin Amerika tərəfindən idarə edilməsi nəzərdə tutulur. Bununla belə, Kiyev hələ Trampın tələblərini qəbul etməyə hazır deyil və ABŞ-la sövdələşmədə Avropanın dəstəyini almağa çalışır. Bir tərəfdən ABŞ, Ukrayna və onun avropalı müttəfiqləri arasında münasibətlərdəki gərginliyə Vaşinqtonun Ukrayna münaqişəsinə dair BMT Baş Assambleyasının Ukrayna qətnamə layihəsinə səs verməkdən imtina etməsi və Amerika tərəfinin Rusiyanı qınamayan alternativ layihə təklifi əlavə edir.**

Şənbə günü Mühafizəkarların Siyasi Fəaliyyət Konfransında (CPAC) çıxış edən Donald Tramp Kiyevin Ukraynaya çox milyard dollarlıq Amerika yardımını kompensasiya etməsi zərurəti ilə bağlı yeni bəyanatla çıxış edib: "Mən pulumuzu geri almağa və ya onun təhlükəsiz olduğuna əmin olmağa çalışıram. Bildiyiniz kimi, Avropa Ukraynaya 100 milyard, ABŞ isə 350 milyard dollar verib. Ona görə də biz nadir torpaq metalları və neft istəyirik. "Mümkün olan hər şeyi əldə edə bilərik" deyə Donald Tramp bildirib. "Biz pulumuzu geri alacağıq, çünki bu ədalətli deyil. Prezident Trampın bəyanatı aparıcı Amerika mediasında sızmalara baxmayaraq, tərəflərin ötən şənbə günü Ukraynanın mineral ehtiyatlarına nəzarətin ABŞ-a ötürülməsinə dair saziş imzalaya bilməməsindən sonra verilib.

Bloomberg-in xəbərinə görə, Kiyev Vaşinqtonun Ukrayna iqtisadiyyatını bərpa etmək üçün Amerikanın rəhbərliyi altında 500 milyard dollarlıq fond yaratmaq tələblərinə qarşı çıxıb ki, bu da yuxarıda qeyd olunan sazişin tərkib hissəsi olmalıdır. Agentliyin mənbələrinə görə, Kiyev hesab edir ki, Ukraynanın aldığı yardımın real məbləği təqribən 90 milyard dollardır ki, bu da Vaşinqtonun tələb etdiyindən 5 dəfə azdır. Ukrayna Radiosu NV-nin mənbələrə istinadən verdiyi məlumata görə, Kiyev fondun 100 milyard dollara endirilməsi ilə bağlı əks təklif irəli sürüb və bu təklifi Vaşinqtona ötən həftə Ukrayna paytaxtına səfər edən prezident Trampın xüsusi nümayəndəsi Keyt Kelloq aparıb. Mənbənin məlumatına görə, Ukrayna tərəfi, həmçinin müqavilənin şərtlərinin müzakirəsini davam etdirmək üçün Vladimir Zelenski ilə Donald Trampın Vaşinqtonda şəxsi görüşü ilə bağlı istəklərini çatdırıb. Sızdırılan məlumatlara görə, prezident Zelenski hələ də ABŞ-la müqavilə imzalamalı olub-olmaması və hansı şərtlər altında olması barədə dəqiq bir yekun anlayışa gəlməyib. Belə ki, Radio NV-nin məlumatına görə, ötən həftənin sonunda o, öz komandasının üzvləri ilə yüksək tonlarda keçirilən görüş keçirib, lakin nəticədə Vaşinqtonla razılaşmağa qərar verilib, eyni zamanda ondan maksimum güzəştə getməyə çalışıb.

Polşanın TVN24 telekanalının məlumatına görə, Kiyevlə Avropa danışıqları marafonunun iştirakçılarından biri, Polşa prezidenti Anjey Duda Vladimir Zelenskiyə Vaşinqtonla vəziyyəti daha da gərginləşdirməməyi, Amerikanın təkliflərində özü üçün fayda tapmağı tövsiyə edib. O qeyd edib ki, Ağ Evin sahibi Birləşmiş Ştatların son illərdə Ukraynaya hərbi dəstək üçün böyük xərclər çəkməsindən irəli gələn bir iş adamı qədər siyasətçi deyil. Bu, yüz milyardlarla dollardır. Və bununla əlaqədar olaraq Birləşmiş Ştatlar müəyyən mənfəət əldə etmək istəyir. "Mən hesab edirəm ki, ABŞ-ın iqtisadi mövcudluğu çox ağıllı plandır, çünki bu, Ukrayna üçün bir növ təhlükəsizlik zəmanətidir. "Buna işgüzar yanaşma tətbiq edin, danışıqlar aparın - vəssalam", - Polşa lideri Zelenskiyə tövsiyə edib. Prezident Tramp ilk dəfə fevralın əvvəlində Ukraynanın nadir torpaq metallarına maraq göstərdiyini açıqlayıb, bundan sonra ABŞ-ın maliyyə naziri Scott Bessent Amerikanın təklifləri ilə Kiyevə gedib və rədd edilib. Daha sonra Münhendə Beynəlxalq Təhlükəsizlik Konfransında ABŞ-ın vitse-prezidenti J.D.Vens ilə söhbəti zamanı prezident Zelenski Kiyev üçün təhlükəsizlik təminatlarının olmadığını düşünərək ABŞ-la sazişi imzalamaqdan yenə imtina edib və bu, Donald Trampı qəzəbləndirib.

Bu arada, fevralın 21-dən yeni saziş layihəsinin surətini əldə etmiş "The New York Times"ın qeyd etdiyi kimi, bu sənəd hələ də Kiyev üçün heç bir təhlükəsizlik zəmanətini ehtiva etmir, eyni zamanda "bəzi şərtlər əvvəlki versiyadan daha sərt görünür". "The New York Times" yazır ki, Amerikanın yeni təklifləri Ukraynanın təkcə təbii ehtiyatlardan əldə etdiyi gəlirin yarısından deyil, həm də limanların və digər infrastrukturların istismarından əldə etdiyi gəlirdən imtina etməyi nəzərdə tutur. Yeni layihədə həmçinin Rusiyanın tərkibinə daxil olmuş ərazilərdən əldə edilən gəlirlərə dair ayrıca maddələr daxildir: "onlar azad edildikdə". Üstəlik, ABŞ-ın bu ərazilərdəki resurslardan əldə etdiyi gəlirin payı 66% təşkil edəcək. Bundan əlavə, yeni sənəd layihəsində gələcək sövdələşmədən əldə edilən vəsaitin ABŞ tərəfindən idarə olunan xüsusi fonda yönəldiləcəyi də qeyd olunur. Eyni zamanda, ölçüsü 500 milyard dollara çatana qədər Ukrayna ona töhfələr verməli olacaq.




## Ukrayna-ABŞ mübahisələri

"The Washington Post"un həftənin sonunda yazdığı kimi, ABŞ administrasiyası "Ukraynadan "Rusiyanın təcavüzünü" pisləyən illik qətnaməsini geri götürməsini tələb edib. Nəşrin mənbələrinə görə, "bu təklif qətnaməni geri götürməkdən imtina edən Kiyevi heyrətə salıb". Öz növbəsində ABŞ dövlət katibi Marko Rubio bəyan edib ki, Amerika tərəfi "sülhə yol açmaq üçün təşkilatın bütün üzvləri tərəfindən dəstəklənməli olan tarixi qətnamə"nin alternativ layihəsini hazırlayıb. Birləşmiş Ştatların BMT Baş Assambleyasında ilk dəfə olaraq Ukraynaya dair anti-Rusiya qətnamə layihəsinin həmmüəllifi olmadığı barədə məlumatı şərh edən Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib ki, bu, Ukrayna münaqişəsinə sağlam düşüncə mövqeyindən yanaşmağa çalışan Donald Tramp administrasiyasının siyasətinin mahiyyəti kimi praqmatizmə dəlalət edir.

## Makron və Starmer Trampdan nə istəyəcəklər?

Fransa prezidenti Emmanuel Makron və Böyük Britaniyanın baş naziri Key Starmer ABŞ prezidenti Donald Trampı Ukrayna münaqişəsi ilə bağlı Rusiya ilə ikitərəfli danışıqları davam etdirməməyə inandırmaq istəyirlər. Bunun müqabilində onlar Avropanın Ukraynanın gələcək təhlükəsizliyini təmin etmək öhdəliyini təklif edəcəklər. Makron fevralın 24-də Vaşinqtonda olacaq, Starmer isə fevralın 27-də ABŞ-a səfər edəcək. Nəşrin məlumatına görə, iki ölkənin lideri ABŞ prezidentinin Ukraynadakı münaqişəyə son qoymaq planına təsir etmək cəhdi ilə yanaşmalarını əlaqələndirmək barədə razılığa gəliblər. Onlar əmindirlər ki, qlobal təhlükəsizlik üçün "kritik an" gəlib çatıb. Kiyevə konkret hansı təhlükəsizlik təminatlarının veriləcəyi bilinməsə də, "ABŞ dəstəyi ilə" Ukrayna ərazisinə 30 min sülhməramlı yerləşdirməyi təklif edəcəklər. Amma bu planın həyata keçirilməsi Moskva və Kiyevin atəşkəslə bağlı razılığa gəldiyi təqdirdə mümkündür. Pentaqon dəfələrlə Ukraynada Amerika hərbçilərinin olmayacağını bildirib. Fevralın 18-də Rusiya və ABŞ nümayəndələri Ər-Riyadda görüşüblər. Fevralın 23-də ABŞ prezidentinin müşaviri Mayk Uolz bəyan edib ki, ABŞ Rusiya ilə əməkdaşlığa və Ukraynaya dəstək yanaşmasına yenidən baxır.

## Makron səfəri öncəsi kimə zəng edib?

Fransa prezidenti Emmanuel Makron fevralın 23-də bir neçə Aİ ölkəsinin liderləri və Avropa hökumət qurumlarının rəhbərləri ilə bir neçə saatlıq telefon danışığı aparıb. O, tezliklə prezident Donald Trampla görüşmək üçün ABŞ-a gedəcək. Telefon danışıqlarında Avropa Komissiyasının sədri Ursula fon der Leyen, Avropa İttifaqı Şurasının prezidenti Antonio Kosta, Almaniya kansleri Olaf Şolz, Böyük Britaniyanın baş naziri Keir Starmer, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Macarıstanın baş naziri Viktor Orban iştirak ediblər. "Biz sülhün ədalətli, davamlı və davamlı şəkildə Ukraynaya qayıtmasını və bütün qarşıdan gələn danışıqlarda avropalıların təhlükəsizliyinin gücləndirilməsini istəyirik" deyən Makron X-də bildirib. Fransa prezidenti Vaşinqtonda Donald Trampla görüşəcək. Həmin gün, nəşrin qeyd etdiyi kimi, fon der Leyen, Kosta, İspaniya, Skandinaviya və Baltikyanı ölkələr və digər dövlətlərin, o cümlədən Aİ üzvü olmayan NATO ölkələrinin rəhbərlərindən ibarət Avropa nümayəndə heyəti Kiyevə gələcək.

## Rusiyaya qarşı 16-cı Sanksiya Paketi: Trampa qarşı vahid cəbhə?

Keçən həftə ABŞ-ın müttəfiqləri 2022-ci ilin fevralından bəri Qərbin Rusiya-Ukrayna münaqişəsi ilə bağlı tutduğu xətti mahiyyətcə qıran yeni ABŞ prezidenti ilə necə davranacağına qərar vermək üçün Parisdə iki dəfə görüşdülər. Slovakiya prezidenti Peter Pelleqrini nə ölkəsinin, nə də Macarıstanın baş naziri Viktor Orbanla danışıqlara dəvət edilməməsindən qəzəblənib. Ancaq görünür, ideya bu idi - Trampın kursunu Aİ və NATO-da bu siyasətçinin səsi olmaq istəyənlər olmadan müzakirə etmək, xüsusən də Ağ Evin hazırkı rəhbəri ilə öz ünsiyyət üsullarına malik olduqları üçün.

Sonuncu ötən həftə Vaşinqtonun ətrafı Okson Hilldə keçirilən illik Mühafizəkar Siyasi Fəaliyyət Konfransında (CPAC) geri çağırıldı. İlk dəfə 1970-ci illərdə keçirilən tədbir son vaxtlar ilk növbədə dünyanın hər yerindən Tramp tərəfdarlarının toplaşdığı bir tədbirə çevrilib. Bu il CPAC-ın iki iştirakçısı İtaliyanın Baş naziri Giorgia Meloni və Polşa Prezidenti Andjey Duda xüsusi diqqəti cəlb etdi. Videobağlantı vasitəsilə edilən ilk çıxış Trampın əsas Avropa müttəfiqi statusu uğrunda mübarizədə hələ də rəqiblərini qabaqladığını təsdiqləyib. "Düşmənlərimiz ümid edir ki, Tramp biz avropalılardan uzaqlaşacaq, lakin mən onu tanıyıram, o, güclü və effektivdir və əminəm ki, biz onların səhv olduğunu sübut edəcəyik", - Meloni bildirib.

Təbii ki, İtaliyanın baş nazirinin dediklərində avropalı müşahidəçiləri heyran edən əsas məqam onun Münhendə keçirilən təhlükəsizlik konfransında ABŞ-ın vitse-prezidenti J.D.Vens tərəfindən Avropa elitalarına qarşı irəli sürülmüş ittihamları açıq şəkildə dəstəkləməsi olub. Meloni ifadələrində ondan daha az sərt və konkretdir, lakin o, yenə də avropalıların şəxsiyyətini və onların demokratik dəyərlərini təhdid etməyə çalışdığı üçün "liberal sol" və Avropa bürokratiyasını hədəfə alıb. O, Ukrayna, Rusiya və Trampın sülhməramlı səyləri haqqında çox az danışıb. Meloni "davamlı sülhə" doğru "irəliyə getməyin" lehinə danışıb. Eyni zamanda, İtaliyanın baş naziri Ağ Evin Kremlə əsassız güzəştlərə gedəcəyi ilə bağlı qorxuların əsassız olduğunu açıqlayıb. "Trampla biz Əfqanıstanda baş verən fəlakəti bir daha görməyəcəyik" deyən Meloni 2021-ci ildə Amerika qoşunlarının Kabildə hakimiyyət dəyişikliyinə səbəb olan bu ölkədən çıxarılmasına toxunaraq əmin edib.

Melony Parisdəki məclislərdə iştirak edirdi və onlardan çox narazı idi. O, orada yaratmağa hazırlaşdıqları "anti-Tramp cəbhəsi"ndən razı qalmadığını bildirib. Amma Duda Parisdəki görüşlərə qatılmayıb. Duda problemini həll edib. Makron və Starmer Trampla daha çətin danışıqlarla üzləşirlər. Wall Street Journal, yəqin ki, müzakirə edəcəkləri mübahisəli mövzulardan yalnız biri haqqında məlumat verib. İddialara görə, Makron və Starmer Trampa məlumat vermək istəyirlər ki, onun avropalı müttəfiqləri münaqişə bitdikdən sonra (kontingentin sayı 30 min nəfər olacaq) Ukraynaya qoşun göndərməyə razıdırlar. Bununla belə, onlar israr edirlər ki, ABŞ Aİ və NATO ölkələrində hərbi varlığını artırsın. Sadə dillə desək, Tramp Avropanın təhlükəsizliyini avropalıların öz əlinə vermək kimi çoxdankı ideyasından əl çəkməlidir.

**V.VƏLİYEV**

# Edisona “ağıldankəm”, Bethovenə “qabiliyyətsiz”, Eynşteynə “axmaq” deyən təhsil sistemi

***Uşaq tərbiyəsi və uşaq təhsili bir-biri ilə qarışıq olan anlayışlardır. Uşaq tərbiyəsi gözəl əxlaq, nümunəvi insan və müsbət insani dəyərlərə aparan prosesdir. Müəyyən bir fənn üzrə bilik, bacarıq və təcrübə əldə etmək isə təhsil anlayışına daxildir. Təhsilin tətbiqi mexanizmi yaxşı ola bilər, amma məzmun qaneedici olmaz. Bu gün təbliğ edilən, qabaqcıl metodlara əsaslandığı iddia edilən təhsil proqramları tərbiyə məsələsini vacib saymır. Qısacası, daha məktəb tərbiyə vermir. Nəticədə savadı olan, amma tərbiyəsi olmayan gənclik yetişir.***



## Məktəbin təhsili vacibdir, ya tərbiyəsi?

Onilliklər boyunca insanlar ümumbəşəri dəyərləri, adət-ənənələri, mədəni və dini dəyərlərə istinad edən təhsil sistemi ilə oxuyublar. Bu sistemdə uşağa təhsil verərkən onun xarakteri, milli mənsubiyyəti, cinsi, böyüdüyü ailə nəzərə alınırdı. Çünki uşaq tərbiyəsində birinci qayda uşağı və böyüdüyü mühiti tanımaqdır.

Təəssüf ki, hazırda bizim təhsil sistemimiz hər şeydən bir az öyrətmə sistemi üzərində qurulub. Bu arada uşaqların xüsusi qabiliyyətləri itir, uşaqlar öz maraqlarına yönəldilmir. İndi uşaqlar durmadan test etməklə, summativ yazmaqla, imtahana hazırlaşmaqla məşğuldur. Musiqi, rəsm, idman dərsləri birmənalı olaraq keçilmir, uşaqların marağı və istəyi nəzərə alınmır. Övladımızın bilmədiyimiz bir bacarığı varsa, bunu məktəb, pedaqoqlar üzə çıxarmalıdır, çünki onlar bunun təhsilini alıb, uşaqları doğru istiqamətləndirmək vəzifə borclarıdır. Amma indi müəllimlər ”bu uşaq oxumur” deməklə məsuliyyətdən yaxa qurtarırlar. Sual edirəm, niyə oxumur? Səbəbi naməlumdur.

Axı o müəllimlərin əksəriyyəti bilmir ki, 4 yaşına qədər danışa bilməyən Eynşteynin xasiyyətnaməsinə ”çox axmaq və diqqətsizdir” yazaraq məktəbdən qovublar. Yaxud, Edisonu məktəbdən qovan müəllimlər ona ”ağıldankəm” damğası vurmuşdular. Onlar necə pedaqoq idilər ki, gələcəyin ən böyük dahisini, ixtiraçısını tanıya bilməmişdilər? Bethoveni öz müəllimi ”heç nəyə yaramayan qabiliyyətsiz” adlandırırdı, o ”qabiliyyətsiz” milyonların qəlbini fəth edən əsərləri necə yarada bildi? Məktəbdəki kimya dərsindən 3 qiyməti alıb kimyəvi elementlərin dövri cədvəlini yaradan Mendeleyevi necə, müəllimləri niyə kəşf edə bilmirdi?

## Hər şeydən bir az

Övladından şikayətlənən valideynlər, adətən, dərslərindən narahat olduqları üçün şikayətlənir. Əksəriyətimiz üçün zəif qiymətlər qırmızı xətdir. Tutaq ki, övladımız riyaziyyatdan zəif qiymət alır, bunun üçün çoxumuz övladımızı fərdi dərslər, əlavə kurslara göndəririk. Amma əla bildiyi ingilis dili üçün narahat olmuruq, çünki ”onu bilir” deyə düşünürük. Riyaziyyatı öyrənməsi üçün ödədiyimiz pulları ingilis dili kurslarına, təlimlərinə ödəsəm, bəlkə də övladımız bu sahədə biliyini artıraraq mükəmməl bir dilçi olacaq.

Amma təhsil sistemimi, universitetə qəbul qaydaları bizi məcbur edir ki, övladımızı riyaziyyatı da öyrənməyə məcbur edək. Əks halda imtahanda uğur qazana bilməyəcək, universitet qapıları üzünə bağlı qalacaq. Buna görə də valideynlər övladlarının məktəbdə uğur qazana bilmədiyi fənn biliklərini inkişaf etdirmək məcburiyyətindədirlər. Bunu pulla, fərdi dərslə, repetitor köməyi ilə edir.

## Ona dəcəllik etməyə şərait yaradın

Uşağın istedadını üzə çıxarmaq baxımından iki şansı var, biri müəllimi, digəri valideyni. Müəllimlər etinasız olarsa, işin məsuliyyəti valideynin boynuna düşür, valideyn məlumatsız olarsa, onu xəbərdar etmək işi müəllimin öhdəsindədir. Şagirdin psixologiyasını bilən, onunla empatiya qura bilən müəllimlər də, valideynlər də uşağın şansıdır.

İcazə verin uşağınız öz uşaqlığını yaşasın. Ona hərf öyrətmək üçün tələsməyin, sayması üçün məcbur etməyin. Bir küncdə sakit oturan, o yan-bu yana qaçmayan, dəcəllik etməyən uşaq güclü emosional və psixoloji təzyiq altında olur. Uşağın uşaqlığını həddindən artıq qayda və cəzalarla əlindən almayın.

Övladınıza verdiyiniz səhv öyüdlə onu yükləməyin, ”səhv etsən, peşman olarsan” yerinə ”hər insan səhv edir, amma səhvi düzəltməyi də öyrənmək lazımdır” deyin, oyun oynayarkən evi dağıdan uşağa ”sənin ucbatından xəstə olmuşam” yerinə ”əminəm ki, məni narahat edəcək hərəkət etməzsən” deyin. Divar kağızlarını yazdığı üçün ona qəzəblənməyin, onunla bərabər siz də şəkil çəkin. Çiyinlərinə ağır yük yüklədiyiniz övladınız sizi narahat etməmək üçün özünü ”yaxşı” apara bilər, amma uşaqlığını yaşaya bilmir. Sındırmadığı oyuncaqları, içində qaça bilmədiyi səliqəli ev, üstündə atılıb-düşmədiyi divan, yazmadığı divarlar ömrü boyu ona yük olacaq.

Uşaqlara öyrən deyirik, amma dağıtmağına icazə vermirik. Onlar dağıdılmış evi, qırılmış güldanı faciə bilmirlər, yırtılmış top, təkəri sınmış maşın, qolu qırılmış gəlincik də onların nəyisə öyrənməyinə xidmət edir. Əgər cazibə qüvvəsini öyrənmək istəyirsə, icazə verin oyuncaqlarından bir neçəsini yuxarı atsın, pərdənin onun ağırlığını saxlaya bilməyəcəyini ondan asılaraq öyrənəcəksə icazə verin etsin. Qab şampununa şəkər tozu qarışdırıb plastilin düzəltməyinə acıqlanmayın, ”içində nə var” deyə marağında olduğu kompyuteri sökməyinə imkan yaradın. O, hər şeyi əli ilə sökərək təcrübə edir. Unutmayın, yüz fərziyyədən bir təcrübə irəlidir. Ona cəza verməden əvvəl bu dağıntılardan nə öyrəndiyini fikirləşin.

Valideynlər uşağa öyrənmə və həyatı tanımağa yardım edən təcrübələr yaşamağa imkan verməklə yanaşı, bunu məktəbdən tələb etməlidirlər. Məktəb onlara əməyi öyrətməlidir, dərs cədvəllərindən yoxa çıxan ”əmək təlimi” dərsi bunun üçün mükəmməl üsul idi. Hər şeyə qadağa qoyulan uşaq heç nə öyrənməyəcək və əsəbiləşəcək. Uşağın sındıra, boyaya və çirkləndirə biləcəyi təhlükəsiz və zərərsiz mühitlərin yaradılması həm uşağa təcrübə qazandırır, həm də aqressiv impulsların atılmasını təmin edir.

## Uşağı məktəb tərbiyə etməlidir, yoxsa ailə?

Buna birmənalı olaraq ”məktəb”, ya da ”ailə” deyə cavab vermək olmur. Uşaq tərbiyəsi yaşla, təhsillə, savadla, tək ailə və yaxud tək məktəblə olmur. Savadsız valideyn, yaxud da 2 diplomlu, müdafiə etmiş, kitablar yazmış valideynlər də uşaq tərbiyəsində səhvə yol verə bilər ki, bu boşluq məktəbdə doldurula bilər. Yaxud əksinə, bizim nənələrimiz heç ibtidai təhsili belə olmadan nümunəvi, tərbiyəli övladlar yetişdirirdi. Demək ki, tərbiyə vermək üçün təhsil əsas rol oynamır.

Əksəriyyətimiz işləyirik, övladımızla yetərincə məşğul ola bilmirik. Məcburiyyətdən onları nəzarətsiz qoya bilirik. Ona görə də bizim övladlarımızı bizdən çox çevrəmiz tərbiyə edir. Etiraf edək ki, onların tərbiyələrində internet çox böyük rol oynayır. Bizim övladlarımızı bizdən xəbərsiz kimlərsə tərbiyə edir, yönləndirir -oyunlarla, videolarla, fotolarla. Bəzən onları bu mühitdən ayıra bilmirik.

Müşahidə etmisinizsə fərqindəsiniz, uşaqların ad günü tortlarının üzərində təsbeh, bıçaq, tapança, qandal maketləri əks etdirilir, oğru aləminin simvolları əks olunmuş paltarlar geyinirlər. Valideynlərin bəzisi bunu kor-koranə edir, bəzisi isə etinasızlıqdan.

İndi məktəbin də, valideynlərin də üzərinə düşən ən mühüm vəzifə uşağın təlim-tərbiyəsində, təhsilində kontaktda olmalarıdır. Lakin bu kontakt hazırda demək olar ki, yox s ə - viyyəsindədir. Pandemiyadan sonra valideynlərin məktəbə girişi məhdudlaşdırıldı. Valideyn iclasları minimuma endirildi. Məktəbə girə bilməyən, müəllimlərlə real yox, online kontakt yarada bilən valideyn uşağından nigaran qalır.

## Tərbiyənin fiziki cəzalar üzərində qurulması düzgündürmü?

Zorakılığı təbliğ edən istənilən tərbiyə üsulu səhvdir, lakin kiçik cəzalar da olmasa tərbiyə etmək olmaz. Uşağı döymək, incitmək, fiziki xətər yetirmək yolverilməzdir, amma cəza sistemi tətbiq etmək mütləqdir. Bu cəza sistemi zorakılıq etməməli, fiziki güc göstərməməlidir. Valideyn övladının xarakterinə uyğun cəza sistemi yarada bilər. Bu, televizora baxma saatını azaltmaq, virtual oyunlar oynamağını məhdudlaşdırmaq, sevdiyi şirniyyatdan bir neçə günlük məhrum qalmaq kimi yollar ola bilər.

Övladımızı tərbiyə edəndə hər mümkün bəlaya, qəfil hadisəyə, pis mühitə qarşı immunitetli böyütməliyik. Uşaq dünyanın hər üzünü bilməli, tanımalıdır. ”Yağ içində böyrək” misalı böyüdülən uşaqlar sonra hərbi xidmətdə, iş mühitində, ümumiyyətlə cəmiyyətə adaptasiyada çətinlik çəkir. Vaxtında ona həyatın hər çətinliyini öyrətməli, düşəcəyi çətin situasiyalardan çıxış yolunu anlatmalı, analiz və düşüncə qabiliyyətini inkişaf etdirməli, mümkün müsibətə qarşı dözümlülük aşılamaq lazımdır.

Mental dəyərlərimiz bizə övladımızı həmişə yanımızda görməyi, sərbəst yaşamasına imkan verməməyi aşılayıb. Bununla qismən razılaşıram. Biz avropalı ailələr kimi ola bilmirik, 18 yaşı tamam olan kimi övladımızı sərbəst olmağa göndərə bilmirik. Həm valideynlik qayğılarımız, həm də təhlükəli ola biləcəyini düşündüyümüz vəziyyətlər buna imkan vermir. Onlara sərbəstlik verin, amma nəzarəti əldən verməyin. Unutmayın, uşaqlar valideynlərindən çox zəmanələrinə bənzəyirlər.

***Lalə Mehralı***

# Bəşəriyyətə qarşı törədilmiş qanlı cinayət - Xocalı faciəsi




Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünyamızda buna tez-tez təsadüf edirik. Terrorizm haqqında birmənalı tərif olmasa da, mütəxəssislərin əksəriyyətinin qənaətinə görə siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq. Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı terror aktlarının, vəhşiliklərin, soyqırımların acı nəticələrini yaşamışdır. İstər etnik, istər siyasi olsun. Ermənistan tərəfindən etnik terrora məruz qalmış Azərbaycan xalqına qarşı törədilən əməllər insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 44 günlük Vətən müharibəsində də xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Vətən müharibəsində biz erməninin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük Vətən müharibəsində beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı, eyni zamanda, terrorçu dövlət olduğunu tam şəkildə sübuta yetirən yetərincə faktlar mövcuddur. Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş oldu. Vətən müharibəsi zamanı düşmənin xain atəşi nəticəsində təkcə Tərtərdə ümumilikdə 16 mülki şəxs qətlə yetirilib, 63 nəfər yaralanmışdır. Müharibə zamanı, həmçinin Tərtər şəhəri də daxil olmaqla, rayonun 40 yaşayış məntəqəsinə 16 min 277 tank, top, qrad, minomyot mərmisi, 21 qadağan olunmuş raket atılmışdı. Nəticədə Tərtərdə 82 çoxmərtəbəli yaşayış binasına, 5949 fərdi evə, 184 sahibkarlıq və 301 qeyri-yaşayış obyektinə, 17 məktəbə, 11 uşaq bağçasına, 1 texniki peşə məktəbinə, 1 musiqi məktəbinə, 30 inzibati binaya və 20-yə yaxın mədəniyyət və səhiyyə müəssisəsinə ziyan dəymişdir. Mülki əhaliyə atəş açmaq isə bütün beynəlxalq konvensiyalarla qadağan olunur və yolverilməzdir. Ona görə də, Ermənistanın beynəlxalq qurumlar qarşısında cavab verməlidir. Azərbaycan 44 günlük Vətən müharibəsində uğurlu döyüş əməliyyatı apardı və tarixi ədalət bərpa olundu. Təcavüzkar ermənilərin çirkin siyasətləri iflasa uğradı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə Azərbaycan QALİB oldu.

## AZƏRBAYCANIN HAQLI VƏ ƏDALƏTLİ MÖVQEYİ

Qərb diplomatiyası da öz növbəsində münaqişənin danışıqlar masası arxasında həllini vacib saymışdır. Bununla bağlı 1992-ci ildə yaradılmış ATƏT-in Misk qrupu münaqişədə Azərbaycanın haqlı olduğunu bilmələrinə rəğmən bu məsələnin ədalətli şəkildə həllində heç bir fəaliyyət göstərmədi. Bundan əlavə 28 il ərzində Azərbaycanın ərazi bötövlüyü, sərhədlərinin toxunulmazlığı, suverenliyinin bərpasının zəruriliyini nəzərdə tutan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə də yerinə yetirilmədi.

Lakin, bütün bunlara baxmayaraq, Cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu cəmi 44 gün ərzində igidlik və qəhrəmanlıq dastanı yazaraq öz doğma torpaqlarımızı düşmən tapdağından azad etdi. Nəticə isə göz qabağındadır. Ermənistan 44 günlük Vətən müharibəsində məğlub olaraq 10 noyabr 2020-ci ildə kapitulyasiya aktına imza atdı. Beləliklə 30 il ərzində beynəlxalq aləmin həll edə bilmədiyi münaqişəni Azərbaycan hərbi yolla həll etdi. Bu müharibə sübut etdi ki, bölgədə güc mərkəzi Azərbaycana məxsusdur və heç bir qüvvə onun haqlı və ədalətli mövqeyinə təsir edə bilməz.

## PLANLI SURƏTDƏ HƏYATA KEÇİRİLƏN SOYQIRIMI SİYASƏTİNİN QANLI SƏHİFƏLƏRİ

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı və deportasiya siyasəti onların çirkin niyyətinin təzahürüdür. Dövlət başçısının çıxışlarının birində vurğuladığı kimi, "XIX əsrin əvvəllərində Qarabağa və Zəngəzura İrandan və Osmanlı imperiyasından çoxlu sayda erməni ailələrinin köçürülməsi, 1905-ci və 1918-ci illərdə erməni hərbi dəstələrinin Qafqazın müxtəlif bölgələrində həyata keçirdiyi kütləvi qətllər və talanlar, 1948-1953-cü illərdə soydaşlarımızın Ermənistan Respublikası ərazisindəki ata-baba yurdlarından deportasiya edilməsi, 1988-ci ildən başlayaraq Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi güdən genişmiqyaslı müharibə və onun bu gün də davam edən acı nəticələri, 1992-ci ilin Xocalı faciəsi - bunlar təcavüzkar erməni millətçilərinin azərbaycanlılara qarşı planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin qanlı səhifələridir ".

Əlbəttə ki, ötən əsrdə dörd dəfə - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1989-cu illərdə baş verən olaylar ermənilərin xalqımıza qarşı olan çirkin niyyətlərini ortaya qoymuş olur. 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğınlardan 106 il ötməsinə baxmayaraq, bu vəhşiliklər xalqın qan yaddaşında əbədi iz buraxmışdır. Ermənistanın işğalçılıq siyasəti Azərbaycan xalqının dinc həyatına ağır zərbələr vurmuşdur. Belə ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti 1918-1920-ci illərdə xüsusən genişlənmiş və Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərini bütün çılpaqlığı ilə üzə çıxarmışdır.

## BİR GECƏNİN İÇİNDƏ YERLƏ - YEKSAN OLAN ŞƏHƏR

Bildiyimiz kimi, 1992-ci ilin 26 fevral tarixində erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Xocalı bir gecənin içərisində yerlə-yeksan olundu. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində, Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı faciəsi qurbanlarının xatirəsini yad edirlər.

## QARADAĞLI QƏTLİAMI

Ermənistan hərbi qüvvələri tərəfindən yer üzündən silinmiş Xocalı şəhəri və törədilən soyqırımı dünyanın gözü qarşısında olmuşdur. Başlıbel, Ağdaban və onlarla digər kəndlərdə ermənilərin törətdiyi soyqırımı onların tarixdən silinməyəcək iyrənc siyasətini ortaya qoyur.

1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən Qaradağlı qətliamı da Qarabağ münaqişəsi zamanı baş vermişdir. Nəticədə xeyli sayda mülki azərbaycanlı şəxslər ermənilər tərəfindən qətlə yetirilmiş, bir o qədər də əsir alınmışdır. 117 nəfər əsir alınmış, 66-90 nəfər mülki şəxs isə qətlə yetirilmişdir. Öldürülənlərdən 21-i ahıl və qocalar, 10-u qadın, 8-i məktəbli olub. 146 uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər dağıdılıb. Tariximizdə belə hadisələr kifayət qədərdir. Tarix təkrarlanıb. Azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq məqsədi ilə ideyalarının reallaşdırmağa can atıblar.

## KƏLBƏCƏRİN QƏM DASTANININ ƏN KƏDƏRLİ SƏHİFƏSİ - AĞDABAN FACİƏSİ

Soyqırım, genosid bütün əhali qruplarının, etnosların, irqi, milli, etnik, yaxud dini əlamətlərinə görə tamamilə və qismən məhv edilməsi deməkdir. Azərbaycan xalqı ermənilər tərəfindən bütöv bir əsr boyu bu cür soyqırıma məruz qalmış bir xalq olmuşdur. Ermənilərin Azərbaycan torpaqlarında törətdiklər terrorçuluq, işğalçılıq, soyqırımı bunu təsdiqləyir. Qarabağ savaşının ən dəhşətli faciələrindən biri olan Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biridir. Azərbaycanın gözəl guşəsi Qarabağın qala qapısı Kəlbəcəri ələ keçirmək üçün erməni seperatçılarının "Böyük Ermənistan" yaratmaq xülyasıyla Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli soyqırımdır. Ağdaban soyqırımı zamanı bütöv bir kənd tamamilə yandırılmış, yüzlərlə dinc sakinə qeyri-insani işgəncələr verilmiş və yurdundan didərgin salınmışdır.

Faciə baş verən zaman səhərə yaxın erməni quldurları Ağdaban yalında keşik çəkən 3 nəfəri qətlə yetiriblər. Onlar kəndin üst yanındakı bənd-bərələrə dolub, səhər saat 6-da silahlarla nərilti qoparmağa başlayıblar. Qəfil yuxudan oyanan kənd camaatı özünü itirib. Erməni qarətçiləri planlı surətdə hərəkət ediblər. Belə bir vəziyyətdə Ağdərə rayonunun Capar kəndi istiqamətindən Dədə Şəmşirin kəndi Çayqovuşan və Ağdaban kəndlərinə erməni quzğunları hücum ediblər. Erməni quldurları tərəfindən kənd sakinləri amansızcasına öldürülüb, kənd evlərinin əksəriyyəti yandırılıb və qarət edilib. Aşıq Şəmşirin evi və zəngin arxivinə od vurularaq, külə döndərilib. Ağdaban faciəsi Kəlbəcərin qəm dastanının ən kədərli səhifəsini açıb. Faciə zamanı 130 evdən ibarət Ağdaban kəndi tamamilə erməni separatçıları tərəfindən yandırılmış, kəndin 779 nəfər dinc sakininə qeyri-insani işgəncələr verilmişdir. 67 nəfər qətlə yetirilmiş, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir. İstər hərb qanunlarına, istərsə də bütün dünyada qəbul olunmuş insan hüquq və azadlıqlarına sığmayacaq səviyyədə soyqırımına "imza atan" erməni qəsbkarları qırğın zamanı Kəlbəcər rayonunun bu dilbər guşəsində, eyni zamanda, bütün tarixi abidələri, qaynaqları da məhv ediblər.

## BU GÜN XOCALIDA ÜÇRƏNGLİ BAYRAĞIMIZ DALĞALANIR

İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Yevlax rayonunda keçirilən danışıqların nəticəsində Xocalı rayonu 24 sentyabr 2023-cü ildə Azərbaycan Respublikasının nəzarətinə keçdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Artıq bu gün Xocalının qapısı üzümüzə açıqdır, Azərbaycan əzəli torpaqlarına sahibdir.

***ZÜMRÜD BAYRAMOVA***

# XOCALI: qisası döyüş meydanında alınan yurd yerimiz!

**Prezident İlham Əliyev: Xocalıda bayrağı qaldıranda fikirləşirdim, bax, bu gün biz tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xocalıda bayrağın qaldırılması daha da həyəcanlı idi, onu açıq deyə bilərəm**

***Bu gün Xocalı azaddır. 2023-cü ilin sentyabr ayında Azərbaycan silahlı qüvvələrinin Xankəndidə birgünlük antiterror əməliyyatı nəticəsində 31 il sonra Xocalı da öz azadlığına qovuşdu. Həmin lokal xarakterli tədbir ilə 2020-ci ildə əldə etdiyimiz Zəfər üzərinə yeni bir Zəfər gəldi və ümumilikdə işğal altında olan ərazilərimizin düşməndən xilası başa çatdı. Bununla da Azərbaycan öz ərazi bütövlüyünü, konstitusiya quruluşunu bərpa etdi.***




Artıq iki ildir ki, Xocalı faciəsini onun azadlığı şəraitində anırıq. Hər zaman anmalıyıq da. Çünki illər, əsrlər sonra belə düşmən erməninin Xocalıda törətdiyi soyqırımı əsla unudulmayacaq. Eləcə də Xocalının düşməndən azad edildiyi gün tariximizin şanlı səhifəsini təşkil etdiyi üçün hər zaman qürurla anılacaq.

## Faciəyə gedən yol

Xocalı faciəsinə aparan yol hələ XX əsrin əvvəllərindən başlamışdı. Bu yaşayış məntəqəsinin azərbaycanlı əhalisi bir əsrdə 3 dəfə qırğınlara məruz qalmışdı. Xocalı birinci dəfə 1905-ci ildə, sonra isə 1918-ci ildə yandırılmış, 1992-ci ildə isə Xocalıda daha qanlı, daha dəhşətli faciə törədilmişdir. Xocalının işğalı düşmənin əvvəlcədən hazırladığı plan üzrə baş tutmuşdu. Belə ki, şəhər hələ 1991-ci ilin oktyabr ayından blokadaya alınmışdı. 1991-ci ilin oktyabrında Tuğ və Səlakətin kəndləri işğal olunandan sonra Xocavənd də ermənilərin nəzarəti altına keçmişdi. 1992-ci ilin yanvarında ermənilər Xocalı ətrafındakı Axullu, fevral ayında isə Malıbəyli və Quşçular kəndlərini işğal etmişdi. Həmin kəndlərin işğalından bir neçə gün sonra ən iri yaşayış məskənlərindən olan Qaradağlı 366-cı motoatıcı alayın, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülərin hesabına ermənilərin əlinə keçmişdi. Xocalını əhatə edən Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəməki, Noraguh və Mirzəcan kəndlərində xeyli qüvvə toplanmışdı. Avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısının toplandığı bu kəndlərdə



çox sayda raket qurğuları və zirehli texnikalar vardı. Fevralın ortalarından Xocalı erməni silahlıları tərəfindən mühasirəyə alınmışdı və hər gün ağır texnikadan atəşə tutulurdu. İşğal planı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə təşkil olunmuş, Ermənistan silahlı qüvvələrinin bölmələri ilə yanaşı, sovet ordusunun 366-cı motoatıcı alayı da 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın etmiş, günahsız insanları, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirmişlər.

## Növbə Xocalının idi...

O gecə Xocalı sakinləri olacaqlardan xəbərsiz şəkildə evlərində, yataqlarında idi. Onlar üçün plan hazırlandığı barədə heç bir məlumatları yox idi. Bildikləri sadəcə bu idi ki, ermənilər 1988-ci ildən yenə sərhədyanı rayonlarımıza basqın edir, döyüşlər olur, ara bir qədər sakitləşdirilir, sonra yenə eynilə davam edirdi. Düz dörd idi ki, sərhəd rayonların sakinləri kimi, xocalılar da səksəkə içində idi. Lakin o gecəki faciə kimin ağlına gələ bilərdi?..

Bir neçə gün əvvəl Xocavənd rayonu işğal edilmişdi. Xocalılar bunu bilirdilər, belə bir təhlükənin onları da gözləyəcəyini təxmin edirdilər. Lakin bunun gecənin yarısında, şirin yuxuda ikən olacağını əsla düşünməmişdilər.

O gecəyədək, bəli, planlar artıq hazır idi. Ölkəmizə rəhbərlik edənlər Xocavənddən tutmuş Xocalı, Şuşa, Laçın, Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Qubadlı, Zəngilanadək hamısının bir-birinin ardınca işğalına hökm vermişdilər. Bunun üçün sovet imperiyasının başında dayananlarla əlbir olmuş, vəzifə kürsülərini möhkəmlətmək xətrinə Qarabağın ermənilərə hədiyyə olunmasına imza atmışdılar.

Bu səbəbdən də heç kim başına gələcək oyunlardan xəbərdar ola bilməzdi. Hələ aradan xeyli vaxt keçməli idi ki, ordumuzun zabit və əsgərləri, yurd yerlərini ov silahı, bel, şana, dırmıqla müdafiəyə qalxan oğullarımız kömək üçün dövlətə müraciət etsin və heç bir cavab almayandan xeyli sonra anlasınlar ki, bəli, torpaqlar planlı şəkildə satılıbmış.

O gecə növbə Xocalının idi. Xocavənddən sonra Xocalı işğal olunmalı idi. Xocalılar qonşuluqdan kənar olmuşlar bunu işğal etdikləri bütün rayonlarda da kor gözləri ilə gördülər. Minlərlə şəhid verdik, lakin bir addım geri çəkilmədik. Sərhədlərimizdəki qüvvələrimiz də, son nəfəsimiz də tam tükənəndən sonra düşmən torpaqlarımızı işğal edə bildi.

Xocalı sakinləri gecə yuxudan pəncərələrinə odlu silahlardan açılan atəşlərin rənginə və səsinə oyandılar. İnsanlara əyinlərinə paltar geyinməyə macal vermədi düşmən. Güllələnən güllələndi, qalan camaat isə meşələrə, dağlara üz tutdu. Qışın soyuqlu-sazaqlı, faciə, dəhşətlə dolu bir gecəsində yaşanacaqları görmək, şahidi olmaq üçün evlərindən çıxdılar...

## Gecənin qaranlığı qədər dəhşətli

O gecə Xocalıda ermənilər tərəfindən 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirildi. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralandı. 1275 nəfər əsir götürüldü ki, onların 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

613... Bir gecənin soyqırımına məruz qalan 613 insan. Yataqlarında ölümünü gözləyən Xocalı sakinləri. Saatlar sonra nə baş verəcəyindən xəbərsiz insanlar...

O gecənin qaranlığı qədər dəhşətli anları yaşadı xocalılılar. 25 fevraldan 26 fevrala keçən gecə Xocalı şəhəri kimi, onun dinc əhalisi də məhv edildi. Həm xocalılılar, həm də Xocalı şəhid oldu və şəhərlə onun sakinləri bir-birilərinin ölümünə, məhvinə şahid oldular.

613 nəfər o gecənin qurbanı oldu. Kimin günahsız, dinc sakinləri isə dəhşətli, faciəvi şəkildə qətlə yetirilməli idi ki, bütün ölkəni erməni xofu bassın və işğal üçün növbədə dayanan rayonların sakinlərinə görk olsun. Onlar Xocalı sakinlərinin başına gətirilənləri yaşamadan yurdlarını, ev-eşiklərini asanlıqla tərk etsinlər. Bəli, məsələ bu idi. Lakin erməni qonşusuna hələ də bələd deyildi ki, azərbaycanlılar torpaq üçün son damla qanlarına kimi vuruşmadan ölməzlər. Sonra ağlına gətirə bilərdi ki, bir gecədə bu qədər adam həyatla vidalaşacaq. Əslə düşünüləsi bir hal deyil. Lakin oldu, yaşandı və 613 Xocalı sakini o qaranlıq gecənin dəhşəti ilə üzüzə qaldı. Qonşu qonşunun, qohum qohumun, ata balanın, uşaq ananın, atanın gözü qarşısında şəhid oldu. Dünyada oxşarı olmayan bir fəlakəti yaşadı Xocalı və xocalılılar.



*Ardı Səh. 12*

# XOCALI:

## qisası döyüş meydanında alınan yurd yerimiz!

Əvvəli Səh. 11

Düşmən o gecə insanlıqdan əl götürdü. İnsanlığa qarşı bütün rəzalətləri sergilədi. Bir sözlə, əsl xislətini ortaya qoydu. Bir-birinin ardınca törətdiyi hadisələrin hər biri ayrı-ayrılıqda əsl erməni obrazını nümayiş etdirdi. Əvvəlcə sakinlərin evlərindən çıxarılması, öldürülməsi, sonra onların evlərinin talanması, daha sonra evlərə və şəhərə od vurulub yandırılması, qaçan insanların yaxalanması, onların güllələnməsi, öldürülən insanların əl-ayağının kəsilməsi, gözünün çıxarılması, dərisinin soyulması kimi hərəkətlərin hər biri erməni vəhşiliyindən söhbət açdı o gecə, onların əsl üzünü tanıtdırdı. Daim gözü Azərbaycanın torpaqlarında, sərvətində olan bu qəbilənin nəyə qadir olduğundan danışdı. Yəni bu vəhşi qəbilədən bundan başqa nə isə gözləmək də düzgün olmazdı. Çünki onlar qəbilədirlər. Xalq, millət formasında nə vaxt yaşamışlar ki, onlardan başqa nə isə gözləyərdik.

Beləliklə, o qaranlıq gecə və açılan boz səhər Xocalı adlı şəhərin qətliamına şahid oldu. Soydaşlarımız öz yurdlarında öldürüldü, qalanlar isə məcburi köçkünə çevrildi, əsir götürüldü...




### Məqsəd azərbaycanlılara məxsus mədəniyyəti yer üzündən silmək idi

Xocalı mühüm geostrateji mövqeyi ilə seçilir. Burada hava limanı da yerləşirdi. Ermənilərin diqqətini Xocalıya yönəltməsinin əsas səbəbi də bu şəhərin işğal edilməsi ilə Qarabağa nəzarətin tam ələ keçirilməsi, eyni zamanda hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi. Strateji mövqeyi ilə yanaşı, Xocalı həm də ölkəmizin zəngin tarixə malik ərazilərindən biridir. Bu ərazinin tarixində Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrləri mədəniyyətinə aid kurqanlar özünəməxsus yer tutur. Xüsusilə tunc silahları və başlıca olaraq boz rəngli keramika məmulatı ilə fərqlənən bu mədəniyyətə məxsus abidələr ilk dəfə Xocalı yaxınlığında, daha sonra isə Qarabağın böyük bir hissəsində və Gədəbəydə aşkara çıxarılmış, əsas yaşayış məntəqələrinin adına görə Xocalı-Gədəbəy mədəniyyəti adlandırılmışdır. Tarixçilər müəyyən ediblər ki, Xocalı-Gədəbəy mədəniyyəti eradan əvvəl V-III minilliklərdə Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətinin və ondan sonra burada mövcud olan Qarabağ mədəniyyətinin varisidir.



Xocalı mühüm arxeoloji abidələri ilə Azərbaycanın qədim tarixini özündə əks etdirdiyindən ermənilərin burada həyata keçirdiyi soyqırımının bir məqsədi də azərbaycanlılara məxsus mədəniyyəti yer üzündən silmək idi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal ediləndən dərhal sonra onun ətrafında olan və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığı da xüsusi texnika ilə dağıdılmışdır.

Xocalı soyqırımının şahidi olmuş müxtəlif xarici ölkə jurnalistləri onu bəşəriyyətin böyük faciəsi adlandırmışlar. Fransadan olan jurnalist Jan-İv Yunet yazır: ”...Biz Xocalı faciəsinin şahidi olduq, yüzlərlə həlak olmuş dinc əhalinin-qadınların, kişilərin, qocaların və Xocalı müdafiəçilərinin meyitlərini gördük. Bizə helikopter verdilər, biz quş uçuşu hündürlüyündən Xocalı ətrafında nə gördüksə, hamısını çəkirdik. Bu, dəhşətli mənzərə idi. Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı barədə çox eşitmişəm, lakin ermənilər 5-6 yaşlı uşaqları, dinc əhalini öldürərək onları geridə qoyublar”.

Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, Xocalıda istifadəsi qadağan olunmuş mərmilərdən və kimyəvi silahlardan istifadə edilmişdir. Bu məlumat Rusiyanın ”Memorial” hüquq-müdafiə mərkəzinin açıqlamasında da öz əksini tapmışdır. Bütün bu faktlar Ermənistanın Cenevrə Konvensiyasının protokollarını pozaraq dinc sakinlərə qarşı soyqırımı həyata keçirdiyini təsdiqləyir.





### Xocalını yaşadan dahi

Təəssüflər olsun ki, Xocalı soyqırımından sonra həmin dövrdə Azərbaycana rəhbərlik edənlər bu faciəyə biganə münasibət göstərmiş, xalqımıza qarşı törədilən cinayəti ört-basdır etməyə çalışmışlar. Yalnız həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən Ümummilli Liderimiz Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, faciəni törədənləri və səbəbkarları məsuliyyətə cəlb olunmasını tələb etmişdir.

Ulu Öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin fevralında Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək ”Xocalı Soyqırımı Günü haqqında” Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq dünya ictimaiyyətini erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır. Qəbul edilmiş qərara əsasən bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı ”Xocalı Soyqırımı Günü” elan olunmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin ”Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında” 1997-ci il fevralın 25-də imzaladığı Sərəncamla hər il fevral ayının 26-sı saat 17:00-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur.

Ümummilli Lider Heydər Əliyev demişdir: ”İnanıram ki, bu gün xalqımız müstəqil Azərbaycan dövlətində daha da mətinləşib və dövlətimizin müstəqilliyini qoruyub saxlamaq, işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda yenilməz mübarizə aparmaq əzmindədir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan dövləti xalqımızın bu müqəddəs amallarının gerçəkləşməsi yolunda var qüvvəsini sərf edəcək, soydaşlarımıza qarşı törədilmiş qanlı cinayətlərin, o cümlədən Xocalı faciəsinin bütün günahkarlarının lazımınca cəzalandırılması üçün bütün tədbirləri görəcəkdir”.

### Biz Xocalı soyqırımı qurbanlarının qisasını döyüş meydanında aldıq

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ”Xocalı soyqırımının otuzuncu ildönümü haqqında” 2022-ci il 28 yanvar tarixli Sərəncamında qeyd olunur: ”Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Soyqırımının törədilməsinə görə Ermənistanın ozamankı siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır... Ermənistanın daim mülki əhalini hədəf seçən təxribatlarına və hərbi təcavüzünə cavab olaraq, 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda Vətən müharibəsinə qalxdı... 44 gün sürən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusu parlaq qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi. Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət ”Xocalıya ədalət!” beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir... Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq”.

Bu gün hər bir azərbaycanlı Xocalı soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, ata vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və birgünlük antiterror əməliyyatı zamanı düşmən üzərində qazandığımız tarixi qələbənin qürurunu da yaşayır. Qəhrəman ordumuz Ali Baş Komandanımızın əmri ilə 2020-ci il sentyabrın 27-də başladılan ”Dəmir yumruq” əməliyyatı ilə düşməni darmadağın edərək doğma Qarabağımızı 30 ilə yaxın əsarətdən xilas etdi. Şanlı Azərbaycan Ordusu tərəfindən məhv edilən düşmən qüvvələri içərisində Xocalı soyqırımının icraçılarından da var idi.

”Biz Xocalı soyqırımı qurbanlarının qisasını döyüş meydanında aldıq”, - deyən cənab İlham Əliyev çıxışlarında bu fikri də səsləndirmişdir: ”Biz heç vaxt imkan verə bilmərik ki, bizim bölgədə erməni faşizmi baş qaldırsın. Heç vaxt imkan verə bilmərik ki, Ermənistan yenə də Azərbaycan üçün potensial təhdidə çevrilsin. Əgər bunu görsək, onu yerindəcə məhv edəcəyik. Bunu hər kəs bilməlidir”.

Bu gün qürur duyuruq ki, faciənin 33-cü ilində Xocalıda Azərbaycan bayrağı dalğalanır. Bu əzəmətli bayraq Ali Baş Komandan İlham Əliyevin əzmi və minlərlə şəhid və qazimizin şücaəti ilə dalğalanır Xocalıda. Onun dalğaları hər bir xocalılının qisasının alındığını yayır yurd yerlərinə. Prezident İlham Əliyevin dediyi kimi: Xocalıda bayrağı qaldıranda fikirləşirdim, bax, bu gün biz tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xocalıda bayrağın qaldırılması daha da həyəcanlı idi, onu açıq deyə bilərəm. O bayrağın dalğalarını həm də bütün dünya görür. Görür ki, illərlə susduğu, həlli üçün bir addım atmadığı məsələni Azərbaycan dövləti necə həll etdi.

***Mətanət Məmmədova***

# “Qərb dairələri yenə riyakar və ikiüzlü mövqe nümayiş etdirirlər”

“Ukraynada baş verən faciə Rusiyanın Ukraynanın böyük bir hissəsini işğala məruz qoyması və paralel olaraq bu gün Ukraynanın sıxışdırılaraq çox çətin bir duruma salınması, ilk növbədə hazırda dünyada baş verən ədalətsizliklərin, eyni zamanda da Qərbin, ABŞ və Avropa İttifaqı ölkələrinin çeşidli, riyakar planlarının növbəti təzahürüdür”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Sahil Kərimli deyib.O bildirib ki, biz üç il əvvələ nəzər salsaq, Bayden hakimiyyəti dövründə Ukraynanın necə qızışdırılması, Ukraynaya həm






maddi, həm hərbi yardımların göstərilməsi və bununla da Rusiya ilə müharibəyə sürüklənməsini çox yaxşı xatırlayırıq: ”Təəssüf ki, bu gün Qərb dairələri həmişə olduğu kimi yenə riyakar və ikiüzlü mövqe nümayiş etdirirlər. Ukraynanı meydanda köməksiz vəziyyətdə buraxırlar. Hazırda Ukraynanın təbii sərvətlərinin bölüşdürülməsi, Ukraynanın ərazilərinin yenidən müəyyənləşdirilməsi və bu ərazilərin Rusiyaya güzəştə gedilməsi istiqamətində də müxtəlif fikirlər və mövqelər səsləndirilir. Bu da bütün dünyaya dərs olmalıdır. Hesab edirəm ki, həm Qərbin, həm Amerikanın bir daha içüzünün ortaya qoyulması istiqamətində addımlar atılmalıdır. Əlbəttə ki, bu gün Amerikanın yeni rəhbərliyi, Tramp administrasiyası müharibənin dayandırılması, insanlıq faciəsinin sonlandırılması istiqamətində çox ciddi səylər göstərirlər. Bu da təqdirəlayiqdir. Çünki müharibə nə qədər davam edərsə, bu, Rusiyadan daha çox Ukrayna üçün hərtərəfli faciələrə gətirib çıxara bilər. Eyni zamanda həm kütləvi şəkildə müharibədə insan itkisinin olması böyük dağıntıların və faciələrin daha da böyük miqyas alması sirr deyil. Ona görə də, bu cür Ukrayna və Rusiya arasında müharibənin dayandırılması istəkləri də müsbət qarşılanmalıdır”.

”Digər əsas məsələ də ondan ibarətdir ki, Avropa və Qərb dairələri uzun illər dünyanın bir çox ölkələrində təxribatlar yaratmaq, hakimiyyət dəyişikliklərini reallaşdırmaq istəyir. Hətta USAİD adlı təşkilat var idi və Azərbaycandan qovulub. Dünyanın bir çox ölkələrində də bu təşkilatın fəaliyyəti dayandırılıb. Paralel olaraq artıq Amerika Birləşmiş Ştatlarının rəsmi qurumları özləri də bu təşkilatın çirkli və təxribatçı əməlləri barədə ifşa materialları yayırlar. Qərb, Avropa İttifaqı ölkələri uzun illər idi ki, dünyanın bir çox ölkələrində bu cür təxribatçı fəaliyyətlə məşğul idilər. Müstəqil ölkələrin ərazisində çaxnaşma, təxribatlar yaratmaq, hakimiyyət çevrilişlərinə cəhdlər, rəngli inqilabların planlaşdırılması, həyata keçirilməsi, ümumiyyətlə, cəmiyyətlərdə hazırkı düzgün olmayan, gənclər arasında milli dəyərlərin deqradasiyaya uğraması, qeyri-ənənəvi meyillərin təbliği istiqamətində də bir çox addımlar atılıb ki, həmin cəmiyyətlərdə boşluqlar yaransın. İnsanlar iğtişaşlara və etirazlara cəlb olunsunlar.Azərbaycana qarşı da bu cür cəhdlər dəfələrlə olub. Uzun illər bu cür mənfi tendensiyalar yayılıb. Planlar hazırlanıb və həyata keçirilməyə çalışılıb. Amma Azərbaycan dövlətinin ilk növbədə qətiyyətli siyasəti, qabaqlayıcı tədbirlər, eyni zamanda da Azərbaycan cəmiyyətinin bu cür meyillər qarışında daim ayıq-sayıq olması, Azərbaycan gənclərinin vətənpərvər olması, bu cür meyillərə uymaması, daim dövlətin yanında olması Avropa İttifaqının və ABŞ-ın bu cür təxribatlarının qarşısının vaxtında alınmasına yardımçı olub. Hesab edirəm ki, bundan sonra da Azərbaycanda xalq-iqtidar birliyi, gənclərin Azərbaycan dövlətinə böyük inamı, etibarı sayəsində bu cür cəhdlərin qarşısı vaxtında və uğurlu şəkildə alınacaq” - deyə o, ələvə edib.

**Söylü Ağazadə**

# “Cehiz adəti şişirdilməsə, olduqca gözəl ənənədir"

*İZAH EDİLDİ*



”Bəşəriyyət var olduğundan bəri analar-atalar qız köçürəndə ona müəyyən əşyalar verərmiş”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Lalə Mehralı deyib. O bildirib ki, tam mənası ilə cehiz sayılmazmış, amma simvolik məna kəsb edərmiş: ”Məsələn, nənələrimizin əksərinin cehizi bir süpürgədən və bir qazandan ibarət olub. Süpürgənin verilməsində məqsəd yeni gəlinin təmizkar, səliqəli olmasına işarə idi, qazan isə ruzili olmaları üçün verilib.

Zaman irəlilədikcə cehizin sayı və dəyəri də artıb. Valideynlər mümkün qədər daha çox əşya cehiz verib, hətta daha dəyərli cehiz vermək barədə bir növ yarışa giriblər. O zamanların ən məhşur cehiz əşyaları isə əldə işlənmiş bəzək əşyaları, əllə naxışlanmış yorğan-döşək üçün üzlər, süfrələr və s. idi. İllər ötdükcə cehizə qab-qacaq, bahalı parçalar, uzaq ölkədən gətirilmiş ipək, zər-xara paltarlar da əlavə edilməyə başladı. Amma bunları maddi imkanı daha yaxşı olan ailələr edə bilirdi. Elə o zamandan da cehiz adətində bölünmə başladı. Kasıb ailələrinin cehizi ayrı, varlıların cehiz anlayışı isə ayrı oldu.

Cehiz adəti şişirdilməsə olduqca gözəl ənənədir. Təəssüf ki, indi cehiz dedikdə adət-ənənə və bu adətin gözəlliyi düşünülmür, əksinə, qızın ailəsinin nə verəcəyi, nə qədər xərc çəkəcəyi, elektronkanı hansı marka alacağı, mebelin haradan sifariş ediləcəyi və s. kimi məsələlər marağa səbəb olur. Cehiz üçün borca girənlər, cehizi olmadığı üçün ailə qurmaq istəməyən qızlar var. Ailəsini cehiz almasa intihar edəcəyi ilə hədələyənlər, qızına aldığı cehizin kreditini ödəyə bilməyib özünü metro vaqonunun altına atanlar, cehizində istədiyi markalar olmadığına görə intihar edənlər də var cəmiyyətimizdə. Onlar cehizin mahiyyətini bilmıyənlərdir”.

**Söylü Ağazadə**



MƏTANƏT

# Sosial şəbəkələrin üzünü ağardan QAR

***Ötən həftənin sonundan başlayaraq bütün ölkə qara-ağ örpəyə büründü. Bir çox hadisələr də baş verdi. Həm sevincli, həm də kədərli hadisələr. Hələ başqa hadisələr də...***

Çığıranlar, ”urraa” deyənlər az olmadı. Nə etsinlər, yadırğamışıq qara. Bu səbəbdən onlar nə edəcəklərini bilmirdi. Bizimsə bu qar hər birimizin uşaqlığı idi. Günlərlə yağıb qalaq-qalaq olan qarın öhdəsindən gələn bizlər deyildikmi? Xizəklərimizi götürüb səhərdən axşamadək evə yığışmayan bizlər deyildikmi? Üst-başımız suyun içərisində, ayaqlarımız ”potik”lərdə yaş olardı. Əlcəklərimizdən su axardı, lakin doymaq bilməzdik qardan.

Böyüklər yolların qarını o tərəfə-bu tərəfə yığıb gediş-gəliş üçün cığır açardı. Bizsə qar əriyənədək onunla oynayardıq. Qar nə yaxşı ki, yağdı, xatirələrimizə geri döndük. Həyatımızın dörd bir tərəfini əhatə edən uşaqlığımızla əlaqəsi olmayan hadisələr fonunda əsl uşaqlığa qayıda bildik.

Bu, bizim üçün belə oldu. Bəs başqaları üçün qarın yağması nəyi dəyişdi? Avtomobil qəzaları baş verdi. Yıxılan, travma alanlar oldu. Bu qar nə canlar incitdi, nə yaralar açdı... Allah onların hər birinin köməyi olsun.

Lakin daha başqa hadisələr də baş verdi. Birincisi, iki gün ərzində insanların gündəlik həyatı dəyişdi. İllərlə davam edən eyni qış günləri ikicə gün ərzində öz axarını başqa səmtdən saldı. Uşaq-böyüklü hər kəs küçə-parklara axışdı. Qar topu oynayan kim, qar adam düzəldən kim... Dünənədək konsertləri, atəşfəşanlıqları çəkib telefonlarının qalereyasını dolduranlar heç olmasa bu dəfə qarı çəkib həmin foto və videolardan istifadə etmiş oldular, qarın hər üzünü paylaşdılar.

Çox şükür etdik həmin iki gün. Çünki sosial şəbəkələrdə statuslar dəyişdi. Hər cümə bir-birinin ardınca ”cüməniz mübarək” adlı onlarla foto, video paylaşanlar, öz şəxsi həyatlarını-ad günü, nişan, toylarını, hara getdi, haradan gəldi, nə yediklərini paylaşanlar ən azından başqa bir mövzuya keçid etdilər və bizim də gözlərimizin qanı çəkildi. Ətraf aləm kimi, statuslarımız da bəyaz rəngə büründü.

Həmçinin də Tiktok, İnstagram, Whatsapp, Facebook sosial şəbəkələrinin, xüsusilə Tiktokun üzünə qara pərdə çəkilməli videoları, canlı yayımları ikicə günlük ağardı. Bütün bunları gördükcə arzuladıq ki, kaş bu bəyaz qar tez-tez yağardı, bəlkə bizim uşaqlığımızdakı dövrdən əsər-əlamət qalmayan bəzi məqamları, əməllərin rəngini dəyişərdi. Utanmağın nə olduğunu unudan insanların üz pərdəsinə çevrilərdi.

Qar yağdı, yaxşı ki, yağdı. Yollar buz bağladığından insanlar evdə oturmalı, yaxınlıqda olan qohum-qonşuların qapısını açmalı oldu. Ən azından aylar sonra bir-birinin üzünü canlı olaraq görə bildilər. Bir ”nə var, nə yox?” etdilər. Bir-birinin çayını içib, çörəyini kəsdilər. Uzaqlardan olan qohum-əqrəbalar da yada düşdü. Qar soyuğu ilə başqa əyləncələrdən saxladığı adamların əllərinə telefon götürüb onlara bir zəng etməyi də yadlarına saldı. Beləliklə, bu qar çox savab əməllərə vəsilə oldu.

Həqiqətən də qar nə yaxşı ki, yağdı. Qara torpaq da bəyazlaşdı. Bu torpağın bəyazlaşmağa ehtiyacı vardı. Hələ kaş qar yağan günün gecələri elə bir ayaz olardı ki, yer-göy buz bağlayardı. Torpağın da, göyün də görüb dəhşətə gəldiyi əməllər heç olmasa, bir neçə günlüyə görünməz olardı...

Bir sözlə, qar, yaxşı ki, yağdı... Ən ağrılı yerimiz olan sosial şəbəkələrin ki qara rəngini bəyazlatdı, yaxşı ki, yağdı...

# Mixail Belyayev: “Rusiya və Azərbaycan bütün çətin məsələləri həll edəcək”

***Tanınmış rusiyalı politoloq və iqtisadçı Mixail Belyayev Rusiya və Azərbaycan liderləri tərəfindən ”Müttəfiq əməkdaşlığı haqqında Bəyannamə”nin imzalanmasının 3-cü ildönümü ilə əlaqədar ”Moskva-Baku” portalına şərhində münasibətlərin gələcəyini dəyərləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***-Mixail Kimoviç, fevralın 22-də Rusiya və Azərbaycan liderləri tərəfindən Müttəfiq Əməkdaşlıq haqqında Bəyannamənin imzalanmasından 3 il ötür. Münasibətlər müəyyən çətinliklərlə üzləşir. Eyni zamanda, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu yaxınlarda bəyan etdi ki, bizim əlaqələrimiz müttəfiqlik olub və belə də qalmaqdadır və bu münasibətlərə zərbə vurmağa çalışanlar buna nail ola bilməyəcəklər. Bundan əlavə, görürük ki, Azərbaycan prezidenti bu yaxınlarda "Şimal-Cənub" sazişini təsdiqləyib, Rusiya ilə Azərbaycan qaz kəmərinin birgə tikintisini müzakirə edir, Bakıda keçirilən Asiya Parlament Assambleyasında Rusiyanın çoxqütblülük bəyannaməsi qəbul edilib. Hazırkı vəziyyətdə ikitərəfli münasibətlərin perspektivlərini necə qiymətləndirirsiniz?***





- Bakı və Moskvanın qeyd etdiyiniz ikitərəfli iqtisadi və siyasi addımları ona görə mümkündür ki, ölkələrimiz arasında münasibətlər ciddi təmələ malikdir. Bu, tarixi, iqtisadi, coğrafi və istəsəniz, bəşəri təməldir. Buna ümumi çağırışların və qarşılıqlı strateji tərəfdaşlığın dəyərinin dərk edilməsi əlavə olunur. Münasibətlərin çətin dövründə belə, bu, belə qalacaq, bu cür təməl və dayaq nöqtələrini süni şəkildə yaratmaq mümkün deyil.

Dövlətlər arasında münasibətlərdə müxtəlif dövrlər var- bu, çay kimidir. Bəzən hər şey sakitdir, bəzən də dalğalar, suyun səviyyəsində azalma və ya artım var. Lakin çayın əsas axını irəli axmağa davam edirdi. Hər iki dövlətimiz suverendir, hər biri öz milli maraqlarını müdafiə edir. Münasibətlərdə həllini tələb edən məsələlərin ortaya çıxması normaldır. Amma bir daha qeyd etmək istərdim ki, əsas odur ki, dövlətlərimiz arasında münasibətlər ciddi əsaslara malikdir. Və bu daimidir. Azərbaycan da Rusiya kimi bu münasibətlərdə strateji perspektivlər görür. Bu daimidir. Biz bir-birimizlə yaxşı münasibətlərin vacibliyini çox yaxşı başa düşürük.

Azərbaycanın təkcə regionda deyil, bütövlükdə beynəlxalq siyasətdə statusu son illər xeyli yüksəlib. Rusiya isə bunu görür. Bir-birimizin milli maraqlarını dərk etməyə əsaslanan konstruktiv və mehriban qarşılıqlı fəaliyyətimiz bizə strateji tərəfdaşlığımız olmadığı halda belə çox bəhrə verə bilər. Həm Bakı, həm də Moskva beynəlxalq platformalarda qarşılıqlı dəstəyi yüksək qiymətləndirirlər. Axı bu, yalnız dövlətlərimizi gücləndirir. Və dostluğumuzdakı problemlər yalnız bizə təsir edir, üçüncü tərəflərə bundan istifadə etmək imkanı verir və bu, yalnız bizə zərər verir. Bütün bu illər ərzində qarşılıqlı fəaliyyətimiz prezidentlər Putin və Əliyev arasında yaxşı münasibətlərə əsaslanır. İlham Əliyev də Rusiya ilə əlaqələrin vacibliyini anlayır.

Belə əlaqələrin əsasını Heydər Əliyev qoydu. İlham Əliyev onun müdrik siyasətini davam etdirir, dövlətini müdrikliklə irəli aparır. O, dövlətin milli maraqlarına arxalanır və onun səsi bu gün dünya miqyasında inamla səslənir. Bu, hər şeyi əvvəlcədən hesablayan, hər şeyi əvvəlcədən ölçən bir strateqdir. Təbii ki, onun 2022-ci il fevralın 22-də Moskvada Vladimir Putinlə Müttəfiqlik Əməkdaşlığı Bəyannaməsini imzalaması, xüsusən də Ukraynadakı xüsusi hərbi əməliyyatın başlaması ərəfəsində balanslaşdırılmış qərar idi. Azərbaycan da buna Rusiya kimi strateji zərurət kimi baxırdı. Belə ciddi, irimiqyaslı sənədlər elə belə imzalanmır.

Müqayisə üçün qeyd edək ki, Rusiya və Amerika tərəfləri arasında Ər-Riyadda keçirilən danışıqların ilk raundunun Trampın əvvəlcədən planlaşdırdığı addım olduğu şübhəsizdir. Yeri gəlmişkən, Rusiya Birbaşa İnvestisiya Fondunun rəhbəri Rusiya Federasiyasından gələn nümayəndə heyətinə niyə qoşulub? Çünki iqtisadiyyatla çox şey bağlıdır.

Siyasət çox incə bir şeydir. Burada mütləq ağ və qara yoxdur. Vəziyyət daim dəyişir, indi də Rusiya ilə ABŞ arasında münasibətlərdə mümkün yaxşılaşma var. Və ölkənizin səsinin dünyada eşidilməsini istəyirsinizsə, milli maraqlara əsaslanaraq strategiyanızı həmişə əvvəlcədən hesablamalısınız.

Bu gün dünyada geosiyasi vəziyyət dəyişir və mən əminəm ki, Rusiya və Azərbaycan bundan sonra da iki xalqın mənafeyi naminə strateji qarşılıqlı fəaliyyətə arxalanmalıdırlar.

Azərbaycanın Rusiya ilə iqtisadi əməkdaşlıqda atdığı iqtisadi addımlar siyasi iqtisadın sadə məntiqidir. Azərbaycan Respublikası Qərblə Şərq arasında yerləşir, əla coğrafi mövqeyə malikdir və ”Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizinin faydalarını dərk edir. Üstəlik, bu dəhliz Azərbaycan üçün Zəngəzur dəhlizi adlanan dəhlizlə bağlı məsələnin həllinə töhfə verə bilər. Və ikitərəfli və çoxtərəfli layihələr, o cümlədən Rusiyadan Azərbaycan ərazisindən İrana qaz kəmərinin çəkilməsi ilə bağlı danışıqların getməsi faktı ciddi məsələlərdir. Bu o deməkdir ki, Moskva və Bakı əməkdaşlığın inkişafına sadiqdirlər.

Bunlar sadəcə yazılan sənədlər deyil, münasibətlərin qurulmuş əsasını vurğulayan və onun praktiki həyata keçirilməsini təmin edən sənədlərdir. Azərbaycan müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirmək üçün çox perspektivli ölkədir, onun potensialı çox böyükdür. Nəqliyyat marşrutları qarşılıqlı əlaqənin çox mühüm tərkib hissəsidir, iqtisadiyyat- nəqliyyat marşrutları var, ticarət var, tərəqqi var. Bu isə iqtisadiyyatın əlavə inkişafıdır.

Şübhə yoxdur ki, Rusiya ilə Azərbaycan arasında bütün ən çətin məsələlər öz həllini tapacaq, çünki hər iki ölkənin hakimiyyət orqanları bu cür təlatümlərin faydasızlığını və zərərliliyini çox gözəl anlayır və bir-biri ilə strateji qarşılıqlı fəaliyyətin vacibliyini dərk edirlər. Ölkələrimizin ortaq cəhətləri çoxdur. Bunlar həm də Cənubi Qafqazda təhlükəsizlik məsələləridir.

Rusiya media məkanında bəzi siyasətçilər və digər insanlar tərəfindən bəzi bəyanatlara gəldikdə, onlar danışmazdan əvvəl ”iki dəfə düşünmək” məntiqinə əməl etməli idilər. Çünki bu cür bəyanatlar mahiyyət etibarı ilə Rusiyanın Azərbaycanla strateji müttəfiqlik üzrə rəsmi siyasətinə ziddir.

Orjinal olmaq və ondan müəyyən xal qazanmaq istəyənlər də var, nəyisə başa düşməyənlər də var, 3-cü tərəflərə işləyib bunun üçün pul alanlar da var və s.

***Tərcümə - Elçin Bayramlı***

# “Referendumun qəbul olunması qaçılmazdır”

“Azərbaycan-Ermənistan arasında sülh sazişində demək olar ki, birinci olaraq əngəllərdən faktiki 17 bənddən ibarət olan razılaşma var. Onlardan 15-i icra olunub, 2 bənd qalıb”. Bu barədə SİA-ya açıqlamasında siyasi şərhçi Bədrəddin Quliyev deyib.O bildirib ki, birincisi, Ermənistan tərəfi Azərbaycanın işğal altında olan 4 kəndini qaytarmalıdır: ”Hələlik bizim ən qlobal problemimiz 4 kəndimizin işğal altında olmasıdır. Bununla bağlı konkret olaraq delimitasiya və demarkasiya prosesi tam başa çatmayıb. Bu proses davam etdirilməlidir.İkincisi, Ermənistan tərəfinin Azərbaycanla bağlı ərazi iddiası var və bu da onların konstitusiyasında öz əksini tapıb. Demək olar ki, 1989-cu ilin dekabr ayının 1-dən Dağlıq Qarbağın Ermənistana birləşməsi haqqında Ermənistan Ali Sovetinin qərarı var. O da onların müstəqillik bəyannaməsində öz əksini tapıb. 1990-cı illərdə ermənilər Qarabağda seçkilər keçirmiş, Qarabağın Azərbaycana aid olması, ərazi bütövlüyünün tanınması ilə bağlı 1989-cu ilin dekabr ayının 1-də qəbul etdikləri qərar ləğv etməlidirlər. Həm bizə, həm də Türkiyə ilə bağlı olan Ağrı dağının Emənistanın emblemasında dəyişiklik aparılmalıdır.Ermənistan ərazisindən keçən Zəngəzur dəhlizinin nefti məsələsini gündəmə gətirmək üçün ixracat yüklərinin daşınması tarixi Azərbaycan torpaqları olub. Düzdür, Rus-Sovet işğalı dövründə bu ərazilər tədricən alınaraq Ermənistana verilib və Azərbaycanın faktiki Naxçıvan MR ilə Azərbaycan arasında 41 km-lik dəmiryolu vardır. Bu dəmiryol və keçid Sovet dövründən, 1992-ci ilin aprel ayına qədər Azərbaycan dəmiryollarının tabeliyində olub.Qarabağ quberniyasını iki hissəyə parçalayandan sonra, həmin ərazilərin parçalanması, dağıdılması, kəndlərin yandırılması və tədricən həmin ərazinin ələ keçirilməsi prosesi başladı. SSRİ yaranan dövrdə ruslar buranı işğal etdikdən sonra Zəngəzuru iki hissəyə ayırdılar. Bu əraziləri hissə-hissə ələ keçirməyə başladılar. ”Qars” müqaviləsinin prinsipləri kənara qoyularaq, proseslər başladı və getdikcə bunu 26 km aralığa çatdırdılar. L. Mirzoyan Azərbaycan SSR Kommunist Partiyasının birinci katibi olandan sonra, (1926-1929) Nüvədi kəndi Zəngilanın tabeliyindən çıxarıb, Ermənistana verildi. 1929-cu ildən 1969-cu ilə qədər Nüvədi kəndi tabe olmadı, 1969-cu ildə Azərbaycan SSR Ali Sovetinin qərarı əsasında bu ərazilərin Ermənistana verilməsinə razılıq verdi.



Belə dövrdə rus basqısı, işğalı daxilində torpaqların parçalanmasının əsas məqsədi o idi ki, bizim türk dünyası ilə əlaqələrimizi ayırsınlar. Ona görə də Türkiyə ilə Naxçıvan sərhədindəki Arazdəyən və Dərələyəz bölgəsinin 1920-ci ilin avqust ayında ermənilərə verilməsi bizi müttəfiqsiz qoymaq, ərazilərimizi ələ keçirmək, dağıtmaq, parçalamaq siyasəti güdürdü. Bu siyasətin qarşısı 2020-ci ildə alındı. Ona görə də Azərbaycana qarşı onların çox böyük xəyanətləri olub. ”Xocalı soyqırımı”ndan başlayaraq, Şuşanın, Laçının, Kəlbəcərin işğalında Azərbaycan xalqına qarşı genosiyası, etnik təmizləmə aparmaq bu proseslərin yekunu formasında bölgəni tərk etdikdən, Azərbaycan öz ərazi bütövlüyünü həll etdikdən sonra sülhə məcburetmə əməliyyatı başlayır və bölgədə Ermənistan yeni müttəfiqlər axtarmaq istəyir. Yenidən o bölgəni silah-sursatla təmin etmək istəyir. Buna baxmayaraq, sülhə gedən anlarda vaxtın uzadılması, geopolitik nöqteyi-baxımdan bölgədə vəziyyətin dəyişməsi və bölgədə türk faktorunun ortaya çıxması Ermənistanı məcbur edir ki, Türkiyə ilə sərhədləri açsın və Azərbaycanla sülh müqaviləsi bağlasın.Bölgəni əlavə münaqişə zonasına çevirməsi Ermənistanın məhvinə gətirib çıxara bilər. Yeni Ermənistanın yaranması və yeni Ermənistanın konstitusiya və referendumunun qəbul olunması qaçılmazdır. Düzdür, bu, Ermənistana marağı olan həm Qərb dövlətlərinin, o cümlədən, Rusiyanın, İranın marağındadır ki, bu proses uzansın və sülh müqaviləsi bağlanmasın. Nə qədər sülh müqaviləsi bağlanmayıbsa, Ermənistan ərazisindən keçən yollar, iqtisadi əlaqələr olmayacaq”.”Bölgədə alternativ yollar çəkilir. Erməni cəmiyyətində olan ərazi iddialarından, xülyalarından, ”Böyük Ermənistan” yaratmaq iddialarından kənarlaşdırmaq, qonşularla normal münasibətin yaşanması məcburiyyətində qalıblar. Ermənilərə dəstək olan qüvvələrin bu gün öz daxilində olan ziddiyyət var ki, Ermənistan yaddan çıxıb. Ermənistan məcburiyyət qarşısında bölgədə referendum məcburiyyətinə getməli olacaq. Konstitusiyada dəyişiklik olduqdan sonra, sülh prosesi getdikcə sürətlənəcək.

Üzdə Ermənistan cəmiyyətini ona hazırlayırlar, arxada isə Ermənistan Azərbaycanla birgə delimitasiya və demarkasiya prosesi komissiyası ciddi şəkildə işçi qrupları formasında bütün əlaqələri gedir.Bölgədəki şəraitə, vəziyyətə uyğun olaraq Ermənistanın yeganə çıxışı sülhə getməkdir. Ermənistanın bölgədə müharibə etmək potensialı tükənib. Bu gün bölgədə İran, Rusiya-Ukrayna məsələsi olduğuna görə Ermənistanın mövcud hakimiyyəti vəziyyətdən çıxmaq istəyir. Baxmayaraq ki, Fransa və Avropanın müəyyən təsirləri var. Ermənistanda yolların açılması və sülh müqaviləsinin bağlanması bölgədə ərazi-kommunikasiya xəttlərinin açılması İran və Rusiyadan gedən ümumdünya ticarət sistemində Ermənistanın da qoşulmasına gətirib çıxara bilər. Ermənistan bu prosesləri dəqiqləşdirib, ciddiləşdirməli, ondan sonra Azərbaycanla danışıqlara başlamalıdır” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

ELMİN SONU

(VIII YAZI)

*"Yaradılışda heç bir ziddiyyət və uyğunsuzluq görə bilməzsiniz. (Quran, Mülk surəsi, 3-4)*




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*

**Kainatın və canlı həyatın varlığını təmin edən 4 qüvvə**



Kainatdakı fizika qanunları 4 əsas qüvvə üzərində işləyir. Bunlar "Qravitasiya qüvvəsi", "Elektromaqnit qüvvəsi", "Güclü nüvə qüvvəsi" və "Zəif nüvə qüvvəsi"dir. Bu qüvvələrin dəyərləri mükəmməl bir dəqiqliklə düzəldilmişdir ki, kainat indiki halında mövcud ola və həyatı təmin edə bilsin.

Atomlar, yəni maddi kainat ancaq bu qüvvələrin təsiri ilə mövcud olmuş və kainata nizamlı bir quruluşda dağılmışdır. Hər biri digərindən fərqli gücə və təsir sahəsinə malikdir. Güclü və zəif nüvə qüvvələri sadəcə atomun quruluşunu müəyyənləşdirir. Digər iki qüvvə, yəni cazibə və elektromaqnit qüvvəsi isə atomlar arasındakı əlaqəni və dolayısilə bütün maddi obyektlərin arasındakı tarazlığı tənzimləyir. Dünyadakı qüsursuz nizam bu qüvvələrin həssas münasibətlərinin nəticəsidir.

Kainatdakı nizama təsir edən ən mühüm qüvvələrdən biri "Qravitasiya (cazibə) qüvvəsi"dir. Nyuton deyirdi ki, bu qüvvə təkcə almaları ağacdan yerə salmayıb, həm də planetləri öz orbitlərində saxlayan sirli bir qüvvədir. Eynşteyn isə məsələni daha da dərinləşdirərək cazibə qüvvəsinin nəhəng ulduzların içəriyə doğru çökməsinə və onları qara dəliklərə çevirməsinə səbəb olmasından danışıb. Kainatın genişlənməsini nəzarət altında saxlayan qüvvə də cazibə qüvvəsidir.

Əgər Qravitasiya sabiti indikindən bir qədər yüksək olsaydı, ulduzların əmələ gəlməsi daha qısa müddətdə baş verərdi və kosmosdakı ən kiçik ulduzun da kütləsi bizim Günəşinkindən ən azı 1,4 dəfə böyük olardı. Belə böyük ulduzlar o qədər tez və qeyri-sabit yanır ki, onların ətrafındakı planetlərdə həyatın inkişafı üçün lazım olan şəraitin yaranması qeyri-mümkündür.

Bundan başqa, kainatdakı bütün iri kütləli ulduzlar qara dəliklərə çevrilərdi. Bu halda ən kiçik planetlərdə belə cazibə qüvvəsi o qədər güclü olacaq ki, həşəratdan böyük heç bir cisim yerdən qalxa bilməyəcək.

Digər tərəfdən, əgər qravitasiya sabiti bir qədər kiçik olsaydı, o zaman kosmosdakı bütün ulduzların kütləsi bizim Günəşin kütləsindən ən çoxu 0,8 dəfə çox olardı. Bu kiçik ulduzlar ətrafdakı planetlərdə həyatı dəstəkləyəcək qədər uzun və davamlı yansa belə, planetləri və həyatı meydana gətirəcək ağır elementlər kainatda əmələ gələ bilməzdi. Çünki dəmir və daha ağır elementlər yalnız optimal ölçülü ulduzların nüvələrində əmələ gələ bilər və yalnız belə ulduzlar berillium və daha ağır elementləri ulduzlararası kosmosa səpələyə bilər. Bu cür elementlər planetlərin və həyat formalarının formalaşması üçün lazımdır.

Beləliklə, əgər cazibə qüvvəsi bir az çox artsaydı, kainat genişlənmədən əvvəl öz üzərinə çökər, bir az da çox azalarsa, heç bir ulduz və qalaktika meydana gələ bilməzdi. Göründüyü kimi, cazibə qüvvəsinin belə çox kiçik tərəddüdləri birbaşa həyatın, deməli, bəşəriyyətin yaranmasına mane olardı.

Daha bir möhtəşəm qüvvə- Atom daxilində protonları və elektronları birləşdirən qüvvə "Elektromaqnit qüvvəsi"dir. Atom nüvədə proton adlanan hissəciklərdən və nüvə ətrafında orbitlərdə fırlanan elektronlardan ibarətdir. Bir atomun nüvəsindəki protonların sayı onun atom tipini müəyyən edir. Məsələn, 1 protonlu atoma hidrogen atomu, 2 protonlu atoma helium atomu və ya 26 protonlu atoma dəmir atomu deyilir. Eyni şey bütün digər elementlərə də aiddir.

Əgər "Elektromaqnit qüvvəsi" bir qədər güclü və ya zəif olsaydı, atomlar bir-biri ilə birləşə bilməzdi. Nəticədə həyat üçün lazım olan molekullar əmələ gələ bilmədi.

Atomun nüvəsindəki protonlar müsbət elektrik yüklü, onların ətrafında fırlanan elektronlar isə mənfi elektrik yüklüdür. Proton və elektronun bu əks elektrik yükü onlar arasında cazibə yaradır və bu cazibə elektronları atom nüvəsi ətrafındakı orbitlərində saxlayır. Əks yüklü protonları və elektronları birləşdirən qüvvə "elektromaqnit" qüvvəsidir.

Atom nüvəsi ətrafındakı elektron orbitlərinin xüsusiyyətləri atomların bir-biri ilə hansı növ bağlar yarada biləcəyini və hansı növ molekullar yarada biləcəyini müəyyən edir.

"Elektromaqnit qüvvəsi"nin dəyəri bir qədər kiçik olsaydı, az sayda elektron nüvənin ətrafındakı orbitlərdə qala bilərdi. Bir az daha böyük olsaydı, heç bir atom başqaları ilə birləşmək üçün orbitalını paylaşa bilməzdi. Hər iki halda həyat üçün lazım olan molekullar əmələ gələ bilməz.

3-cü qüvvə- "Güclü nüvə qüvvəsi" atomun nüvəsindəki proton və neytronları bir yerdə saxlayan qüvvədir. Protonlar müsbət elektrik yüklü hissəciklərdir. Elektromaqnit qanununa görə, əks elektrik yüklü hissəciklər bir-birini çəkir, eyni elektrik yüklü hissəciklər isə bir-birini itələyir. Yəni elektronlar və protonlar bir-birini çəkir, protonlar digər protonları, elektronlar isə digər elektronları itələyirlər.

Bir çox növ atomların nüvələrində bir-birinə yapışmış onlarla proton var. Təbii ki, bu protonlar bir araya gələn kimi bir-birini böyük enerji ilə dəf etməli və hər biri birbirindən uzaqlaşaraq kosmosa dağılmalı idi. Ancaq belə deyil, atomun nüvəsindəki protonlar böyük bir sabitliklə bir-birinə bitişik qalırlar. Çünki onları sözün əsl mənasında birləşdirən və elektromaqnit itələmə qüvvəsindən qat-qat güclü olan bir qüvvə var: "Güclü nüvə qüvvəsi".

Güclü nüvə qüvvəsi kainatın ən güclü qüvvəsidir. Onun gücünü atom və hidrogen bombalarında görürük. Bu enerji mənbəyi Günəşin son 4,5 milyard il ərzində istehlak etdiyi yanacağı və növbəti 5 milyard il ərzində istehlak edə biləcəyi təxmin edilən yanacağı təmin edir. Bu möhtəşəm qüvvənin ədədi dəyəri kainatın ən əsas rəqəmlərindən biridir. "Güclü nüvə qüvvəsi" sabitinin dəyərinin bir neçə faiz azalması və ya artması ilə həyatın ən əsas elementi olan karbon mövcud ola bilməzdi. Bir az daha artıq dəyişmə isə bütün fizika qanunlarının dəyişməsinə, kainatdakı tarazlığın və nizamın pozulmasına səbəb olardı.

Atom nüvəsini bir yerdə saxlayan bu "Güclü nüvə qüvvəsi" ilə başqa bir universal qüvvə olan "Elektromaqnit qüvvəsi" arasındakı nisbət də son dərəcə dəqiq dəyərlərlə tənzimlənir.

Əgər "Güclü nüvə qüvvəsi" bir az da zəif olsaydı, tərkibində birdən çox proton olan başqa heç bir atom yarana bilməzdi. Beləliklə, kainatdakı yeganə element bir protonlu hidrogen olardı.

Əgər bu qüvvə "Elektromaqnit qüvvəsi"ndən bir az güclü olsaydı, kainatda heç vaxt tək protonlu atomlar, yəni hidrogen atomları meydana gələ bilməzdi. Hər iki halda nəticə etibarı ilə, təbii ki, həyat deyilən bir şey olmayacaqdı.

4-cü əsas qüvvə- radioaktiv parçalanmaya səbəb olan bəzi subatomik hissəciklər tərəfindən daşınan "Zəif nüvə qüvvəsi"nin yaratdığı radioaktiv parçalanma nümunəsi neytronların parçalanması, proton, elektron və antineytronu buraxmasıdır.

Atomaltı hissəciklərin daşıdığı "Zəif nüvə qüvvəsi" bu gün yaşadığımız kainatı meydana gətirmək üçün çox dəqiq bir dəyərlə yaradılmışdır.

Atom nüvəsindəki əsas hissəciklərdən biri olan "neytron" əslində qeyd etdiyimiz digər 3 hissəciyin birləşməsindən əmələ gəlir. "Zəif nüvə qüvvəsi"nin dəyəri bir qədər böyük olsaydı, neytronlar daha asan parçalanardı və buna görə də kainatda nadir olardı. Bu halda Böyük Partlayışdan sonra nüvəsində 2 neytron olan çox az və ya heç helium əmələ gəlməmiş olardı. Məlum olduğu kimi, helium hidrogendən sonra ikinci ən yüngül elementdir. Helium olmasaydı, həyat üçün lazım olan ağır elementlər ulduzların nüvələrindəki nüvə sobalarında istehsal oluna bilməzdi. Çünki "karbon", "oksigen" və "dəmir" kimi ağır elementlər nəhəng ulduzların mərkəzlərində helium nüvələrinin bir-biri ilə birləşməsi nəticəsində əmələ gəlir. Buna görə də heliumun olmaması həyat üçün lazım olan digər ağır elementlərin əmələ gələ bilməyəcəyi deməkdir.

Digər tərəfdən, "Zəif nüvə gücü"nün dəyəri bir qədər kiçik olsaydı, Böyük Partlayış hidrogenin çoxunu və ya hətta hamısını heliuma çevirərdi və nəticədə ulduzların əmələ gətirdiyi ağır elementlərin sayında anormal artım olardı. Bu vəziyyət həyatın varlığını qeyri-mümkün edəcək haldır.

"Zəif nüvə qüvvəsi"nin dəqiq dəyərini kritik edən amillərdən biri onun neytrino adlanan atomaltı hissəciklərə təsiridir. Fövqəlnova partlayışlarında ulduzların nüvələrində əmələ gələn və həyat üçün vacib olan ağır elementlərin kosmosa buraxılmasında neytrinolar əsas rol oynayır. Neytrinolara təsir edə bilən yeganə universal qüvvə "Zəif nüvə qüvvəsi"dir.

"Zəif nüvə qüvvəsi" bir qədər kiçik olsaydı, neytrinolar heç bir cazibə sahəsinə məruz qalmadan çox daha sərbəst hərəkət edə bilərdilər. Nəticədə fövqəlnova partlayışı zamanı ulduzun xarici təbəqələri ilə kifayət qədər reaksiya vermədən asanlıqla qaça biləcək və bu, ağır elementlərin kosmosa atılmasının qarşısını alacaqdı. Halbuki "Zəif nüvə qüvvəsi" daha güclü olsaydı, neytrinolar fövqəlnovaların mərkəzlərində qapalı qalacaq və həyatın tikinti blokları olan ağır elementləri yenidən kosmosa daşıya bilməyəcəkdilər.

Paul Davies kainatdakı qüvvələrin necə yüksək dəqiqliklə tənzimləndiyini belə izah edir:

Cüzi fərq olsaydı, biz yəqin ki, onu görmək üçün burada olmayacaqdıq. Kainatın başlanğıcı ilə bağlı son kəşflər genişlənən kainatın heyrətamiz bir dəqiqliklə nizamlandığını ortaya qoyur. Paul Davies. "Təsadüfi Kainat", Kembric: Cambridge University Press, 1982, Ön söz.

Böyük Partlayışın böyük dəlili olan kosmik fon radiasiyasını ilk dəfə Robert Wilson ilə birlikdə müşahidə edən və bu səbəbdən 1965-ci ildə Nobel mükafatı alan Arno Penzias kainatdakı bu qeyri-adi dəqiqliklə bağlı belə deyir:

Astronomiya bizi çox qeyri-adi bir hadisəyə aparır: Yoxdan yaradılmış bir kainat. Həyatın meydana gəlməsi üçün lazım olan şərtləri tam təmin edəcək incə bir tarazlıqla qurulmuş və bu məqsədlə planı olan bir kainat. Hugh Ross, Yaradan və Kosmos: Əsrin Ən Böyük Elmi Kəşfləri Allahı necə aşkar edir, Kolorado: NavPress, yenidən işlənmiş nəşr, 1995, səh. 122-123.

Kolumbiya Universitetinin nəzəri fizika professoru Robert Jastrou da bu qaçılmaz həqiqəti belə ifadə edir:

Fiziklər və astronomların fikrincə, kainat insanların yaşaya biləcəyi çox dar dəyərlər çərçivəsində qurulub. Bu həqiqətə antropik prinsip deyilir. Mənim fikrimcə, elmin əldə etdiyi ən böyük nəticə metafizikadır". (Castrow, R. 1978. God and the Astronomers. New York, W.W. Norton, s. 116).

Aydın görünür ki, kainatın hər bir detalı mükəmməl bir plan və tarazlıqla yaradılmışdır. Sonsuz qüdrət sahibi olan Yaradan, yaşadığımız kainatı qeyri-adi bir "möcüzələr silsiləsi" ilə və tam uyğunluq içində yaratmışdır.

Bu proses Quranda belə ifadə olunmuşdur: "Yeddi səmanı bir-biri ilə mükəmməl uyğunlaşdıran Odur. Rəhman olan Allahın yaradılışında heç bir "ziddiyyət və uyğunsuzluq" görə bilməzsiniz. Budur, gözlərinizi çevirin; Hər hansı bir çat görürsünüzmü? Sonra gözlərinizi daha iki dəfə çevirin; O gözlər yorğun və ümidsiz halda sənə çevriləcək. (Mülk surəsi, 3-4).

(ardı olacaq)

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
26 fevral
2025-ci il

# Qarlı havada baş verən yol qəzalarında dəymiş zərəri kim ödəməlidir?



*Vəkil detalları açıqladı*

"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1108-ci maddəsində ətrafdakılar üçün yüksək təhlükə yaradan fəaliyyətlə törədilmiş zərərə görə məsuliyyətin kimlərin üzərinə düşdüyü aşkar göstərilmişdir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib. Onun sözlərinə görə, belə ki, ətrafdakılar üçün yüksək təhlükə ilə bağlı fəaliyyəti (nəqliyyat vasitələrindən (avtomobil və sair), mexanizmlərdən, yüksək gərginlikli elektrik enerjisindən, atom enerjisindən, partlayıcı maddələrdən, güclü təsir edən zəhərlərdən və i.a. istifadə edilməsi; tikinti fəaliyyətinin və onunla bağlı digər fəaliyyətin həyata keçirilməsi və s.) nəticəsində mülki hüquq pozuntusu törətmiş fiziki və hüquqi şəxslər yüksək təhlükə mənbəyinin vurduğu zərərin əvəzini ödəməyə borcludurlar, bu şərtlə ki, zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya zərərçəkənin qəsdi nəticəsində əmələ gəldiyini sübuta yetirməsinlər: "Zərərin əvəzini ödəmək vəzifəsi yüksək təhlükə mənbəyinə mülkiyyət hüququ ilə və ya digər qanuni əsasla (icarə hüququ ilə, nəqliyyat vasitəsini idarə etmək hüququna dair etibarnamə üzrə və i.a.) sahiblik edən fiziki və ya hüquqi şəxsin öhdəsinə qoyulur.

Yüksək təhlükə mənbəyinin sahibi digər şəxslərin hüquqa zidd hərəkətləri nəticəsində mənbənin onun sahibliyindən çıxdığını sübuta yetirərsə, həmin mənbənin vurduğu zərər üçün məsuliyyət daşımır. Belə hallarda yüksək təhlükə mənbəyinin vurduğu zərər üçün məsuliyyəti mənbəyə hüquqa zidd yiyələnmiş şəxslər daşıyırlar. Yüksək təhlükə mənbəyinin sahibi həmin mənbənin onun sahibliyindən hüquqa zidd götürülməsində təqsirli olduqda məsuliyyət həm mənbə sahibinin, həm də yüksək təhlükə mənbəyinə hüquqa zidd yiyələnmiş şəxsin üzərinə qoyula bilər.

Yüksək təhlükə mənbələrinin sahibləri bu mənbələrin qarşılıqlı təsiri (nəqliyyat vasitələrinin toqquşması və i.a.) nəticəsində üçüncü şəxslərə dəymiş zərər üçün bu Məcəllənin 1108.1-ci maddəsində nəzərdə tutulan əsaslar üzrə birgə məsuliyyət daşıyırlar. Yüksək təhlükə mənbələrinin qarşılıqlı təsiri nəticəsində onların sahiblərinə dəymiş zərərin əvəzi ümumi əsaslarla ödənilir. Beləliklə, müəyyən olunur ki, yüksək təhlükə mənbəyinin (nəqliyyat vasitəsi, mexanizm və i.a.) fəaliyyəti nəticəsində vurulmuş zərərə görə mülki hüquq məsuliyyətini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1108-ci maddəsinə əsasən yüksək təhlükə mənbəyinə mülkiyyət hüququ ilə və ya digər qanuni əsasla sahiblik edən fiziki və ya hüquqi şəxslər daşıyırlar.

Əmək və ya mülki hüquq müqaviləsi üzrə əmək (xidməti) vəzifələrinin icra edilməsi ilə əlaqədar olaraq nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən vurulmuş zərərə görə işəgötürən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1099-cu maddəsinə əsasən mülki hüquq məsuliyyətini daşıyır. Zərərin vurulmasında işçinin təqsirli olduğu halda Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1114-cü maddəsinə uyğun olaraq zərərin əvəzini ödəmiş işəgötürən ona qarşı reqres tələb hüququna malikdir. Bu normalardan da görünür ki, qarlı vı buzlu havada baş vermiş yol qəzalarında dəymiş zərər üçün məsuliyyəti yüksək təhlükə mənbəyini- yəni nəqliyyat vasitəsini idarə edən şəxslər daşıyır".

***Ayşən Vəli***

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Biləsuvarda DƏHŞƏT - bir ailənin 6 üzvü dəm qazından zəhərlənib!

Biləsuvarda evdə dəm qazından kütləvi zəhərlənmə hadisəsi baş verib. Bu hadisə rayonun Çaylı kəndində qeydə alınıb. Bir evdə yaşayan Səidə Əmirova, Salah Ağayev, Sevda Ağayeva, Əli Ağayev, Zümrüd Ağazadə və Gülay Ağayeva dəm qazından zəhərləniblər. Zəhərlənənlər xəstəxanaya yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.



# Messidən avtoqraf istədi, 6 aylıq cəza aldı...

**Leonel Messi ilə bağlı maraqlı hadisə yaşanıb. Belə ki, "Sporting Kanzas Siti" ilə matçın ardından ABŞ-ın "İnter Mayami" klubunun futbolçusu L. Messiyə yaxınlaşaraq ondan avtoqraf istəyən meksikalı hakim Marko Antonio Ortis Nava 6 ay müddətinə diskvalifikasiya edilib. Bu barədə ESPN telekanalı məlumat yayıb.**



CONCACAF bayrağı altında keçirilən oyunlardan kənarlaşdırılan ədalət təmsilçisi Meksika çempionatının matçlarını idarə edə bilər.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**